# 27 Mart Azərbaycanda Elm Günüdür


# ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Qüvvət elmdədir...

Nizami Gəncəvi

НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 11 (1408) ❖ Cümə, 29 mart 2024-cü il ❖ Qəzet 1984-cü ildən nəşr olunur




- Azərbaycan Milli Elmlər Akademiyası ölkəmizin intellektual potensialının möhkəmlənməsinə çox dəyərli töhfələr vermişdir. Kadr hazırlığı işinə də dəyərli töhfələr vermişdir. Bu gün də Azərbaycan Milli Elmlər Akademiyası ölkəmizin ümumi inkişafında fəal rol oynayır, alimlər öz elmi araşdırmalarını apararaq ölkəmizin gələcək inkişaf dinamikasını sürətləndirirlər.

- Mən çox istəyirəm ki, Azərbaycan alimləri gələcəkdə də ölkəmizin hərtərəfli inkişafında daha fəal rol oynasınlar. Çünki ölkəmizin gələcəyi elmi potensialın səviyyəsi ilə bilavasitə bağlıdır. Hər bir ölkədə, o cümlədən Azərbaycanda inkişaf elmin səviyyəsi ilə bağlıdır. Bu gün yeni texnologiyalar əsridir. O ölkələr ki, bu texnologiyaların sahibidir, əlbəttə, onlar dünya miqyasında öz maraqlarını daha böyük dərəcədə müdafiə edə bilirlər.

- Bu gün biz çalışırıq ki, həyatımızın müxtəlif istiqamətlərində ən müasir texnologiyalar Azərbaycana gətirilsin, tətbiq edilsin və bizim alimlərimiz də gələcəkdə öz işlərini bu texnologiyalar əsasında daha səmərə ilə qura bilsinlər.

- Mənim əsas istəyim ondan ibarətdir ki, ilk növbədə Azərbaycan elmi inkişaf etsin, digər tərəfdən ölkəmizin ümumi inkişafına öz töhfəsini versin. Yəni, elmi araşdırmalar sadəcə olaraq araşdırmalar üçün deyil, ölkə iqtisadiyyatının təhlükəsizlik potensialının güclənməsinə yönəlməlidir.

***Azərbaycan Prezidenti İlham Əliyevin AMEA-nın 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncaqdakı nitqindən***

*(9 noyabr 2015-ci il)*

# AMEA-da 27 Mart - Elm Günü





**Martın 27-də Azərbaycan Milli Elmlər Akademiyasının Əsas binasının Dairəvi zalında Elm Günü münasibətilə "Elm Günü və Günün elmi: humanitar tədqiqatlar və süni intellekt" mövzusunda təntənəli tədbir keçirilib.**









Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Xalq rəssamı akademik Ömər Eldarov, Azərbaycan Ağsaqqallar Şurasının sədri, millət vəkili Eldar Quliyev, millət vəkilləri Fazil Mustafa, Ülviyyə Həmzəyeva, AR Elm və Təhsil Nazirliyinin Elm və ali təhsil siyasəti şöbəsinin müdiri Turxan Süleyman, AMEA Rəyasət Heyətinin üzvləri, həqiqi və müxbir üzvləri, AMEA-nın elmi müəssisə və təşkilatlarının əməkdaşları və respublika elmi ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbirdən öncə ilk dəfə təşkil olunmuş Xalq rəssamı akademik Ömər Eldarovun fərdi heykəltəraşlıq sərgisinə, elmi ictimaiyyətə ilk dəfə təqdim olunan AMEA loqosunun eskizləri sərgisinə, eləcə də AMEA Arxeologiya və Antropologiya İnstitutunun sərgisinə baxış olub.

Tədbirdə **AMEA-nın prezidenti akademik İsa Həbibbəyli**nin "Elm Günü və Günün elmi: Humanitar tədqiqatlar və süni intellekt" mövzusunda giriş nitqi dinlənilib. Prezident İlham Əliyevin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə Azərbaycanda Elm Gününün təsis edildiyini diqqətə çatdıran akademik İsa Həbibbəyli bu əlamətdar günün ölkəmizdə geniş qeyd olunduğunu söyləyib.

Azərbaycan elminin qədim tarixi köklərə malik olduğunu bildirən AMEA rəhbəri Orta əsrlərdə və sonrakı dövrlərdə Xətib Təbrizi, Əbülhəsən Bəhmənyar, Səfiəddin Urməvi, Nəsirəddin Tusi, Əbdülqadir Marağayi, Abbasqulu Ağa Bakıxanov kimi alim və mütəfəkkirlərimizin öz elmi fəaliyyətləri ilə bütün dünyaya səs saldıqlarını bildirib. Həmçinin həmin dövrlərdə elmi ideyaların görkəmli ədəbi mütəfəkkirlərimizin əsərləri vasitəsilə ictimaiyyətə aşılandığını və nəticədə elmin cəmiyyətdə öz nüfuzunu artırdığını vurğulayıb.

Azərbaycan elminin təşkilatlanmasından sonra bu prosesin geniş vüsət aldığını söyləyən akademik İsa Həbibbəyli 1923-cü ildə elmi-tədqiqat işlərini aparmaq üçün Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin yaradıldığını, 1932-ci ildə bunun əsasında SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan şöbəsinin təşkil edildiyini, 1935-ci ildə isə SSRİ EA Azərbaycan Filialına çevrildiyini diqqətə çatdırıb. Nəhayət, 1945-ci ilin 27 mart tarixində 15 həqiqi üzvün iştirakı ilə Azərbaycan SSR Elmlər Akademiyasının təsis olunduğunu bildirib.

AMEA-nın ötən 80 ilə yaxın müddətdə şərəfli inkişaf yolu keçdiyini deyən akademik İsa Həbibbəyli bu inkişafın təmin olunmasında Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, Sovet hakimiyyəti illərində Heydər Əliyevin təşəbbüsü ilə Elmlər Akademiyasının maddi-texniki bazası əsaslı şəkildə yenidən qurulub, elmi tədqiqatların ölkə həyatı ilə əlaqələndirilməsi üçün geniş imkanlar yaradılıb. Müstəqillik illərində isə Ümummilli Liderin Fərmanı ilə 2003-cü ildə Elmlər Akademiyasına Milli Elmlər Akademiyası statusu verilib.

Son illərdə isə Azərbaycan elminin Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində yeni inkişaf mərhələsinə qədəm qoyduğunu deyən akademik İsa Həbibbəyli elmi tədqiqatların ölkəmizin inkişaf strategiyasına və milli prioritetlərə uyğun həyata keçirildiyini, nəticədə böyük uğurların əldə olunduğunu söyləyib. Həmçinin dövlət başçısının qayğısı nəticəsində "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin təşkil olunduğunu, Yüksək Texnologiyalar Parkının yaradıldığını, AMEA-nın Mərkəzi Elmi Kitabxanasının yeni binasının tikildiyini, Şamaxı Astrofizika Rəsədxanasının maddi-texniki bazasının yeniləşdirildiyini, Azərbaycan Milli Elmlər Akademiyasının yeni Nizamnaməsinin təsdiq olunduğunu diqqətə çatdırıb.

"Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" ölkə başçısının 28 iyul 2022-ci il tarixli Fərmanı ilə Azərbaycan elminin inkişafında yeni mərhələnin başlandığını bildirən akademik İsa Həbibbəyli Elm və Təhsil Nazirliyinin AMEA ilə birgə ölkəmizdə elmi fəaliyyətin təşkili və nüfuzunun artması istiqamətində mühüm səylər göstərdiyini vurğulayıb.

Akademik İsa Həbibbəyli "Heydər Əliyev İli"ndə AMEA-da görülən genişmiqyaslı işlərdən də danışıb, Ümummilli Liderin xalqımız və dövlətimiz qarşısındakı tarixi xidmətlərini əks etdirən 50-dən çox fundamental monoqrafiya və sanballı nəşrlərin ərsəyə gətirildiyini, Akademiyanın Heydər Əliyevnaməsinin yaradıldığını söyləyib.

AMEA rəhbəri, o cümlədən Qarabağın və Şərqi Zəngəzurun tarixinin, folklorunun, mədəniyyətinin, arxeologiyasının öyrənildiyini, aparılan tədqiqatlar və bu mövzuda nəşr edilən kitablar əsasında Akademiyanın yeni Qarabağnamələr silsiləsinin yaradıldığını bildirib.

Prezident İlham Əliyevin Qərbi Azərbaycana Qayıdış konsepsiyasından irəli gələrək həyata keçirilən işlərdən də bəhs edən akademik İsa Həbibbəyli AMEA-da Qərbi Azərbaycan Tədqiqatları Əlaqələndirmə Şurasının

# təntənəli şəkildə qeyd olunub











təşkil olunduğunu, Tarix və Etnologiya İnstitutunda Qərbi Azərbaycan Tarixi, Folklor İnstitutunda Qərbi Azərbaycan folkloru, Dilçilik İnstitutunda Toponimika şöbələrinin yaradıldığını diqqətə çatdırıb.

Həmçinin aparılan struktur islahatlarından danışan AMEA rəhbəri Tarix İnstitutunun bazasında Tarix və Etnologiya İnstitutunun, Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun əsasında Arxeologiya və Antropologiya İnstitutunun təşkilinin Akademiyada yeniləşmə proseslərinin mühüm hadisələrindən olduğunu deyib. Bundan əlavə, AMEA-nın müxtəlif elmi müəssisələrində müasir tələblərə uyğun olaraq "Qarabağ müharibəsinin tarixi və Böyük Qayıdış hərəkatı", "Türk xalqlarının tarixi və etnologiyası", "Xəzərin arxeologiyası", "Erkən realizm və yeni dövr Azərbaycan ədəbiyyatı", "İdrak nəzəriyyəsi və məntiqi", "Türk xalqlarının əlyazmaları", "Musiqi folkloru" şöbələrinin, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Mehmet Akif Ərsoy Türk Ədəbiyyatı Mərkəzinin yaradıldığını bildirib.

Akademik İsa Həbibbəyli yeniləşən Akademiyada aparılan islahatlar içərisində elektron hərəkatın xüsusi yer tutduğunu, elmmetrik hesablamaların aparılması, AMEA alimlərinin əsərlərinə istinadların müəyyən edilməsi üçün beynəlxalq elmi bazalarda profillər yaradılması, elmi jurnalların elektron bazasının qurulmasının həyata keçirilməsi üçün MDB məkanında ilk dəfə olaraq Azərbaycan Milli Elmlər Akademiyasında "Elektron Akademiya" şöbəsinin yaradıldığını vurğulayıb. Eyni zamanda şöbənin əməkdaşları tərəfindən MDB məkanında ilk dəfə, Türk dünyasında isə TÜBİTAK-dan sonra məhz ölkəmizdə Virtual Elektron Resurslar Sisteminin yaradıldığını deyib. Hazırda "Elektron Akademiya" şöbəsi tərəfindən elmmetrik hesablamalar aparmaq bacarıqlarına malik robot texnologiyalarının modelini yaratmaq üzərində işlərin aparıldığını diqqətə çatdırıb.

AMEA-nın beynəlxalq əlaqələrinə də toxunan akademik İsa Həbibbəyli 2023-2024-cü illərdə Milli Elmlər Akademiyasının 3 beynəlxalq elmi təşkilatın üzvlüyünə qəbul edildiyini, Türkiyə, Pakistan, Bolqarıstan, Özbəkistan, Qazaxıstan, Monteneqro Elmlər akademiyaları ilə müqavilələrin bağlanılaraq əlaqələrin genişləndirildiyini söyləyib.

Həmçinin dövlət başçısının Milli Məclisdəki andiçmə mərasimində qarşıya qoyduğu Türk dünyasıyla əlaqələrin gücləndirilməsi ilə bağlı olaraq AMEA-nın türk dövlətlərinin akademik qurumları və ali təhsil müəssisələri ilə sıx əməkdaşlıq etdiyini bildirib.

"Türk dünyası ilə elmi əlaqələrin daha da genişləndirilməsi, humanitar və ictimai elmlər sahəsində süni intellektin tətbiqi, AMEA-nın embleminin dəyişdirilməsi və yeni loqotipinin yaradılması, müstəqil dövlətimizin daha da inkişaf etdirilməsində Azərbaycan elminin rolunun artırılması qarşıdakı başlıca hədəflərimizdəndir", - deyə AMEA prezidenti diqqətə çatdırıb.

Akademik İsa Həbibbəyli çıxışının sonunda bildirib ki, 44 günlük Vətən müharibəsində, eləcə də antiterror tədbirləri zamanı xalqımıza böyük qələbələr bəxş etmiş və Xankəndidə Azərbaycanın Dövlət Bayrağını ucaltmış Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasəti alimlərimiz ürəkdən dəstəkləyir, Azərbaycan elminə daim diqqət və qayğı göstərən dövlət başçısının qarşıya qoyduğu mühüm vəzifələri məsuliyyətlə yerinə yetirirlər.

Sonra ölkə başçısının 2 fevral 2024-cü il tarixli Sərəncamı ilə "Heydər Əliyevin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalına layiq görülmüş şəxslərə mükafatları təqdim olunub.

Tədbirdə **akademik Akif Əlizadə** çıxış edərək Elm günü münasibətilə elmi ictimaiyyətə təbrik edib, dövlət başçısının daim Azərbaycan elminə, Milli Elmlər Akademiyasına qayğı göstərdiyini, elm xadimlərinin təkliflərinə daim diqqətlə yanaşdığını deyib, təltif olunanlar adından Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Daha sonra **Azərbaycan Respublikası Ağsaqqallar Şurasının Döş nişanı və Fəxri fərmanları şuranın sədri Eldar Quliyev** tərəfindən elm xadimlərinə təqdim edilib.

Təltiflərdən sonra millət vəkili Eldar Quliyev elmi ictimaiyyəti təbrik edib, alimlərə yeni-yeni nailiyyətlər arzulayıb.

Tədbir çərçivəsində, həmçinin "Xalq rəssamı, akademik Ömər Eldarovla dialoq: sənət dünyası və gələcəyə baxış" mövzusunda dialoq təşkil olunub.

Akademik İsa Həbibbəyli ilk dəfə olaraq **Xalq rəssamı akademik Ömər Eldarovun** fərdi heykəltəraşlıq sərgisinin Elm günü çərçivəsində təşkil olunduğunu söyləyib. Akademik İsa Həbibbəyli ömrünün 70 ildən çoxunu heykəltəraşlıq sənətinə həsr etmiş ustad heykəltaraş Ömər Eldarovun zəngin yaradıcılıq yolundan bəhs edib. Bildirib ki, ölkəmizdə heykəltəraşlıq məktəbi yaratmış akademik Ömər Eldarovun yaradıcılığında Azərbaycan və dünya heykəltəraşlıq məktəbinin ən mükəmməl elementləri öz əksini tapmışdır. Görkəmli sənətkar Azərbaycan heykəltaraşlıq sənətinə "düşünən heykəllər" silsiləsini gətirmişdir. Akademik Ömər Eldarovun məhsuldar yaradıcılıqla yanaşı, həm də Azərbaycanın elmi-ədəbi və ictimai-mədəni həyatının fəal iştirakçısı olduğunu söyləyən AMEA rəhbəri bildirib ki, məşhur heykəltəraş tərəfindən respublikamızda peşəkar rəssam və heykəltəraşlıq məktəbi formalaşmışdır.

Ona göstərilən diqqətə görə dövlət başçısına və Akademiya rəhbərliyinə dərin minnətdarlığını bildirən Ömər Eldarov uşaqlıq illərindən, heykəltəraş olmağına keçən yoldan bəhs edib. Ömər Eldarov vurğulayıb ki, Fəxri xiyabanda ucalan bütün heykəl və büstlər onun əl işidir və bu baxımdan Fəxri xiyabanı özünün açıq səma altında fərdi sərgisi adlandırmaq olar. Keçdiyi şərəfli yolun gərgin əmək tələb etdiyini bildirən Ömər Eldarov yaratdığı obraz və kompozisiyalardan, görkəmli şəxsiyyətlərlə işindən, təkcə Azərbaycanda yox, dünyanın bir sıra ölkəsində yaratdığı əsərlərdən danışıb.

Daha sonra Ömər Eldarovun həyat və fəaliyyətini əks etdirən "Hələ axşam deyil" sənədli filmi nümayiş etdirilib.

Tədbirdə **Elm və Təhsil Nazirliyinin Elm və ali təhsil siyasəti şöbəsinin müdiri Turxan Süleyman** çıxış edərək Prezident İlham Əliyevin Elm Gününün təsis edilməsi haqqında müvafiq Sərəncamının Azərbaycan elminə, təhsilinə böyük diqqət və qayğının təzahürü olduğunu vurğulayıb, əlamətdar gün münasibətilə elmi ictimaiyyəti təbrik edib. Turxan Süleyman elmlə təhsilin vəhdətinin vacibliyini vurğulayaraq, 2023-cü il noyabrın 28-də ölkə başçısının imzaladığı Sərəncamla Xankəndi şəhərində Qarabağ Universitetinin yaradılmasının tarixi hadisə olduğunu bildirib. Qeyd edib ki, bu qərar bütövlükdə Azərbaycan təhsilinin və elminin inkişafında müsbət nəticələrə səbəb olacaq. O, alimləri və gənc tədqiqatçıları Qarabağ Universiteti ilə əməkdaşlığa dəvət edib.

Sonra çıxış edən **Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Fazil Mustafa** AMEA-nın Azərbaycan xalqının intellektual potensialının formalaşmasında, onun sosial-ictimai tərəqqisində mühüm rol oynayan qurum olduğunu deyib. Prezident İlham Əliyevin elmi ictimaiyyətə hər zaman dəstək olduğunu söyləyən Fazil Mustafa dövlət başçısının elmlə bağlı, alimlərin sosial vəziyyətinin yaxşılaşdırılması ilə bağlı bir sıra Sərəncam və fərmanlar imzaladığını xatırladıb. O, dünya elminin çağırışlarına cavab verən elmi tədqiqatlara üstünlük verməyin, Azərbaycan elmini beynəlxalq elmi tələblərə uyğunlaşdırmağın vacibliyini qeyd edib. Çıxışının sonunda Fazil Mustafa elm adamlarını peşə bayramları münasibətilə təbrik edib, onlara fəaliyyətlərində uğurlar arzulayıb.

Çıxışlardan sonra akademik Yusif Məmmədəliyev haqqında film nümayiş etdirilib.

Daha sonra elmi fəaliyyətində fərqlənən bir sıra alimlərə AMEA-nın Fəxri fərmanları təqdim olunub.

Sonda Azərbaycan Milli Elmlər Akademiyasının Marşı səsləndirilərək tədbirə yekun vurulub.

***

***Qeyd edək ki, AMEA-nın bütün elmi müəssisə və təşkilatlarında 27 mart - Elm Günü münasibətilə silsilə tədbirlər keçirilib.***

# Elm Günü və Günün elmi:

**Müasir cəmiyyətin, ölkələrin və xalqların yüksək inkişafının əsas meyarlarından birinin elm faktorundan ibarət olması dünya elmi-ictimai fikrində qəbul olunmuş qənaətdir. Hələ ki, elmi cəhətdən geri qalmış elə bir ölkə göstərmək mümkün deyildir ki, orada inkişaf və tərəqqi müşahidə olunsun. Ölkələrin elmi göstəriciləri onların ümumi inkişaf səviyyəsinin barometridir. Ona görə də elmin inkişafına diqqət və qayğı göstərmək, elmi, təhsili ön mövqeyə çəkmək inkişaf etmiş dünya dövlətlərinin prioritetləri sırasında xüsusi yer tutur. Deməli, obrazlı mənada Elm Günü sadəcə elmin, alimlərin, ziyalıların deyil, geniş mənada ölkənin və xalqın əsas bayramlarından, ən təntənəli günlərindən biridir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin respublikamızda "Elm Günü"nün təsis edilməsi haqqındakı 9 aprel 2018-ci il tarixli Sərəncamı müstəqil dövlətimizin elmin inkişafına göstərdiyi qayğının və dəstəyin əməli ifadəsidir. Elm Gününün geniş miqyasda qeyd edilməsi alimlərin, tədqiqatçıların, yeni elmi nəsillərin inkişafı ilə əlaqədar məsələlərin gündəmə gətirilməsi, alimlərin xidmətlərinin dəyərləndirilməsi, elm sahəsində keçilmiş yolun müsbət təcrübələrinin, elm sahəsində dünyada gedən proseslərin dərslərindən nəticə çıxarılması, elmi maarifləndirmə tədbirlərinin həyata keçirilməsi kimi vəzifələri özündə cəmləşdirir. Elm Günü akademik elmin, ali məktəb elminin və sahə elminin cəmiyyət qarşısındakı hesabatı və bu istiqamətdə gələcək vəzifələrin müəyyənləşdirilməsi və Günün elminin proqnozlaşdırılması baxımından xüsusi əhəmiyyətə malikdir.**



Məlum olduğu kimi Azərbaycanda elmin çoxəsrlik tarixi və böyük ənənələri vardır. Qədim dövr və orta əsrlərdə Azərbaycanda həm fundamental və tətbiqi elmlər, həm də humanitar və ictimai elmlər sahəsində davamlı ənənələr formalaşmışdır. Böyük Azərbaycan alimi və mütəfəkkiri Nəsirəddin Tusinin yaratdığı Darüş-Şəfa Akademiyası və Marağa Rəsədxanası öz dövrünə görə dünyanın ən qədim və inkişaf etmiş elmi mərkəzlərindən biri idi. Bu akademik elmi mərkəz Çindən - Hindistana, Misirdən - İngilistana qədər tanınmış, dünya elminə mühüm töhfələr vermişdir. Universal elmi qabiliyyətlərinə və xidmətlərinə görə Nəsirəddin Tusi türk-müsəlman dünyasının Aristoteli kimi qəbul olunmuşdur. Eyni zamanda, Əbülhəsən Bəhməniyar Azərbaycani, Xətib Təbrizi, Səfiəddin Urməvi, Əbdülqədir Marağayi, Məhəmməd Hinduşah Naxçıvani, Zeynalabdin Şirvani, Abbasqulu ağa Bakıxanov və onlarla başqalarının əsərləri və elmi ideyaları bütün Şərq dünyasında geniş yayılmış, xalqımıza və ölkəmizə şərəf-şan gətirmişdir. Bundan başqa, Avropa ölkələrindən fərqli olaraq Şərqdə, o cümlədən də Azərbaycanda elmi-nəzəri fikri bədii əsərlər, poeziya sənəti vasitəsilə də inkişaf etdirmişlər. Dövrünün qüdrətli şairləri olmuş Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Saib Təbrizi və başqaları elmi-fəlsəfi ideyalarına görə əsl mütəfəkkir şəxsiyyətlər səviyyəsinə yüksəlmiş, ədəbiyyatla yanaşı, elmin də inkişaf etdirilməsinə böyük təsir göstərmişlər. Ona görə də orta əsrlər Azərbaycan poeziyası həm də zəngin elmi ideyalar xəzinəsi funksiyasını yerinə yetirmişdir.

Bununla belə, etiraf etmək lazımdır ki, Azərbaycan elminin inkişafında XIX əsrdən başlanan maarifçilik hərəkatının böyük rolu olmuşdur. Orta əsrlərdən gələn mədrəsə təhsilinin davam etdirilməsi ilə bərabər, XIX əsrin əvvəllərindən etibarən Azərbaycanın bütün bölgələrində meydana çıxmış dünyəvi məktəblər, genişlənən ədəbi məclislər, milli teatr hərəkatının və milli mətbuatın yaranması və inkişaf etməsi sistemli elmi fikrin formalaşmasında xüsusi əhəmiyyətə malik olmuşdur. Artıq XIX əsrdə ədəbi-ictimai fikirdə ikihakimiyyətlilik yaranmağa başlamışdır. Yeni Azərbaycan ədəbiyyatının inkişafında parlaq yazıçı və şairlər kimi şöhrət qazanan sənətkarlar həm də elmi əsərləri ilə də ölkədə və onun hüdudlarından kənarda tanınmışlar. Məsələn, Abbasqulu ağa Bakıxanov "Təbriz əhlinə xitab" kimi maarifçi şeirləri, "Kitabi-Əsgəriyyə" adlı didaktik hekayəsi ilə bərabər, həm də "Gülüstani-İrəm" kimi fundamental tarix kitabı ilə də Çar Rusiyasında, Osmanlı Türkiyəsində və İranda ad qazanmışdır. Abbasqulu ağa Bakıxanovun yazdığı "Coğrafiya" kitabı Türkiyədə nəşr edilmişdir. Yaxud Azərbaycan dramaturgiyasının və realist nəsrinin banisi olan Mirzə Fətəli Axundzadə, eyni zamanda, ölkəmizdə professional ədəbi tənqidin də əsasını qoymuşdur. Tanınmış maarifçi şair və pedaqoq Məhəmməd Tağı Sidqi həm də "Nümuneyi-əxlaqi", "Töhfeyi-bənat, yaxud qızlara hədiyyə", "Coğrafiya" kimi elmi-populyar xarakterli dərsliklərin də müəllifi idi. Bu baxımdan XIX əsrin sonu və XX əsrin əvvəllərində meydana çıxmış Rəşid bəy Əfəndiyev, Abdulla Şaiq, Mahmud bəy Mahmudbəyov, Abbas Səhhət, Hüseyn Cavid və başqalarının dərslikləri həm də dövrün elmi-maarifçi əsərləri kimi qəbul olunmuşdur. Beləliklə, Azərbaycanda elm məktəb dərsliklərindən keçərək müstəqil elmi təlim səviyyəsinə yüksəlmişdir.

Bütün bunlarla bərabər, Azərbaycanda elmin inkişafında elmi təşkilatların yaranması xüsusi əhəmiyyət kəsb edir. Bu cəhətdən 1923-cü ildə təsis edilmiş Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti çoxəsrlik elm tariximizə ilk elmi qurum kimi daxil olmuşdur. Tədqiq və Tətəbbö Cəmiyyətinin nümunəvi strukturu gələcək akademik qurumların modelinə çevrilmişdir. Tədqiq və Tətəbbö Cəmiyyətinin – Azərbaycanı Öyrənmə Yolu Cəmiyyətinin beş ildən çox keçdiyi yol Azərbaycanda daha əsaslı şəkildə təşkilatlanmış akademik qurumlara yol açmışdır. Həmçinin Tədqiq və Tətəbbö Cəmiyyətinin ətrafında cəmlənmiş və ya bu zəmində formalaşmış alimlər gələcək elmi təşkilatların qurucuları və əsas elmi heyəti kimi çıxış etmişlər. Qısa müddət fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutu Tədqiq və Tətəbbö Cəmiyyəti ilə Azərbaycan Elmlər Akademiyası arasında körpü funksiyasını yerinə yetirmişdir. Nəhayət, 1932-ci ilin 29 dekabrında təsis edilmiş SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan şöbəsinin yaradılması ilə respublikamızda ilk akademik elmi təşkilatın yaranması baş tutmuşdur. Az sonra, 1935-ci ildə həmin akademik qurumun SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialı statusunda fəaliyyətini davam etdirməsi ilə ölkəmizin müstəqil akademik təşkilatının qurulması üçün zəruri olan addım atılmışdır. Bütün bunların əsasında 27 mart 1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının yaranması ilə ölkə elminin davamlı və sistemli şəkildə inkişafı təmin edilmişdir. Milli Elmlər Akademiyasının keçdiyi 80 ilə yaxın məsuliyyətli və şərəfli inkişaf yolu Azərbaycan elminin çoxəsrlik inkişafı tarixinin xüsusi bir mərhələsidir. Azərbaycan Milli Elmlər Akademiyasına rəhbərlik etmiş Mir Əsədulla Mirqasımov, Yusif Məmmədəliyev, Musa Əliyev, Zahid Xəlilov, Rüstəm İsmayılov, Həsən Abdullayev, Fərəməz Maqsudov, Mahmud Kərimov, Akif Əlizadə və başqaları öz dövrlərinə görə ölkəmizdə fundamental tədqiqatların və tətbiqi elmin inkişaf etdirilməsi üçün məqsədyönlü islahatlar həyata keçirmiş, irəliyə doğru əhəmiyyətli addımlar atmışlar. Nəticədə Milli Elmlər Akademiyası zəminində Azərbaycanda müxtəlif istiqamətlər üzrə elmi məktəblər yaranmışdır. Azərbaycan keçmiş Sovetlər İttifaqında və onun hüdudlarından kənarda neft kimyası, neft geologiyası, yarımkeçiricilər fizikası, paleontologiya, idarəetmə sistemləri, fotosintez və seleksiya və sair kimi elm sahələri üzrə əsas elmi mərkəz kimi tanınmışdır.

Elmlər Akademiyası həmçinin ölkəmizdə həmişə ümummilli ideayaların, milli dövlətçilik ideologiyasının, milli-mənəvi dəyərlərin əsas inkişaf mərkəzlərindən biri olmaq funksiyasını da şərəflə yerinə yetirmişdir.

Azərbaycanda cəmiyyət həyatının bütün sahələri kimi, elmin də inkişaf etdirilməsində xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəsna dərəcədə böyük xidmətləri olmuşdur. Məhz Azərbaycan Sovet Respublikasının rəhbəri Heydər Əliyevin xidmətləri sayəsində ölkə elminin baş qərargahı olan Elmlər Akademiyasının maddi-texniki bazası əsaslı şəkildə yenidən qurulmuş, elmi tədqiqatların ölkə həyatı ilə əlaqələndirilməsi üçün geniş imkanlar yaradılmışdır. Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi sayəsində humanitar və ictimai elmlərin azərbaycançılıq istiqamətində inkişaf etdirilməsi, Azərbaycan dilinin və milli mədəniyyətin tədqiqi və təbliğinə xüsusi diqqət yetirilməsi xalqımızın gələcək dövlət müstəqilliyinə hazırlanmasına uğurla xidmət göstərmişdir. Sonralar Azərbaycanda müstəqillik uğrunda mübarizə hərəkatında və dövlət müstəqilliyi quruculuğunda alimlərin, yaradıcı ziyalıların aparıcı mövqe qazanmasının əsası görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan Sovet Respublikasına rəhbərlik etdiyi illərdə qoyulmuşdur. Sovet İttifaqı Qəhrəmanı akademik Ziya Bünyadov, akademik Fərəməz Maqsudov, AMEA-nın müxbir üzvləri Abbas Zamanov, Xudu Məmmədov, tanınmış professorlar Murtuz Ələsgərov, Yəhya Məmmədov, xalq yazıçıları Anar, Elçin, Yusif Səmədoğlu, xalq şairləri Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza Ulutürk, Vaqif Səmədoğlu, Sabir Rüstəmxanlı, Zəlimxan Yaqub və başqaları Azərbaycan tarixinin Heydər Əliyev epoxasının görkəmli milli ziyalıları, böyük mübariz vətəndaşlarıdırlar. Azərbaycanın yeni vətənpərvər nəsilləri ölkəmizin milli ruhlu adlı-sanlı vətəndaş alimlərinin və şairlərinin ideyalarının işığında yetişib formalaşmışlar.

Ölkəmiz müstəqillik qazandıqdan sonra da yeni tarixi epoxasının lideri olan Heydər Əliyev Azərbaycan elmini inkişaf etdirmək üçün genişmiqyaslı tədbirlər həyata keçirmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fərmanı ilə 2003-cü ildə Elmlər Akademiyasına Milli Elmlər Akademiyası statusunun verilməsi elmimizin keçmiş sovet imperiyasının təsirindən xilas edilərək, xalqımızın milli maraqlarına və ölkəmizin dövlətçilik mənafelərinə doğru istiqamətləndirilməsi sahəsində atılmış əhəmiyyətli addımdır. Azərbaycan Milli Elmlər Akademiyasının müstəqillik dövrünə aid Heydər Əliyev tərəfindən təsdiq edilmiş ilk Nizamnaməsinin qəbul edilməsi də ölkə elminin müstəqil dövlət quruculuğuna və bəşəri dəyərlərə doğru inkişafında xüsusi rol oynamışdır. Azərbaycan alimlərinin yubileylərinin keçirilməsi, yüksək dövlət mükafatları ilə təltif olunması, yeni elmi nəslin nümayəndələrinin irəli çəkilməsi Heydər Əliyev ideallarının işığında elmimizin tarixinə yazılmış mühüm hadisələrdir. Azərbaycan Elmlər Akademiyasının 1975-ci ildə keçmiş SSRİ-nin ən yüksək mükafatlarından biri olan "Xalqlar dostluğu" ordeni ilə təltif olunması da Heydər Əliyev epoxasında qazanılmış tarixi nailiyyətdir.

Yeni tarixi epoxada Azərbaycan elmi ölkəmizin rəhbəri İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində yeni inkişaf mərhələsinə daxil olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təsdiq etdiyi ölkəmizin inkişaf strategiyasında və milli prioritetlər sırasında elmə dair müddəaların yer alması elmin rolunun daha da artırılması ilə bərabər, həm də cəmiyyət həyatının inkişafına doğru qəti dönüşünün təmin edilməsinə həlledici təsir göstərmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının yeni Nizamnaməsinin Prezident İlham Əliyev tərəfindən 13 dekabr 2014-cü ildə təsdiq olunması Azərbaycan elminin yeni mərhələsinin məsul vəzifələrinin inkişafına doğru istiqamətləndirilməsinə hüquqi təminat vermişdir. Müstəqillik dövrü Azərbaycan elminin inkişafında müstəsna dərəcədə böyük rolu olan "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin salınması, Yüksək Texnologiyalar Parkının yaradılması, AMEA Gəncə Bölməsinin, Lənkəran Regional Elmi Mərkəzinin təşkili, AMEA Mərkəzi Elmi Kitabxanasının fəaliyyətə başlaması, Şamaxı Astrofizika Rəsədxanasının maddi-texniki bazasının yeniləşdirilməsi, Milli Azərbaycan Tarixi Muzeyinin, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin əsaslı şəkildə yenidən qurulması kimi dövlət əhəmiyyətli addımlar möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən dövlət səviyyəsində həyata keçirilmiş tədbirlər kimi əhəmiyyətlidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında"kı 28 iyul 2022-ci il tarixli Fərmanı ilə Azərbaycan elminin inkişafında yeni mərhələ başlanmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının 3 noyabr 2023-cü il tarixdə təsdiq edilmiş yeni Nizamnaməsi Akademiyanın və ümumiyyətlə elmi fəaliyyətin ölkəmizin inkişafında başlanmış yeni epoxanın tələblərinə uyğun şəkildə yenidən qurulmasına geniş meydan açır. Son illərdə yenidən təşkilatlanma və müasir idarəetmə ilə əlaqədar Milli Elmlər Akademiyasında həyata keçirilən genişmiqyaslı islahatlar Azərbaycan elminin ölkəmizin inkişafına, müasir dövrün məsul vəzifələrinə doğru inkişaf etdirilməsinə təminat verir. Milli Elmlər Akademiyasında Azərbaycançılıq ideyasının ön mövqeyə çıxarılması, yeni tarixi dövrün milli ideologiyasının müəyyən edilməsi istiqamətindəki araşdırmalar elmimizin milli dövlətçilik maraqlarına və milli-mənəvi dəyərlərimizin tədqiq edilərək yeni nəsillərə çatdırılmasına hesablanmış tədbirlərdir. Azərbaycanın ədəbiyyatı və tarixinin, habelə milli mədəniyyətimizin yeni dövrləşdirilmə konsepsiyasının hazırlanması, çoxəsrlik inkişaf mərhələlərinin müəyyən edilməsi, milli fəlsəfi təlimlərin formalaşdırılması sahəsində aparılan müzakirələr və əldə edilən yekun qənaətlər xalqımızın tarixinin müstəqillik işığında yenidən yazılmasına, ədəbiyyat və mədəniyyət tariximizin azərbaycançılıq əsasında mərhələlər üzrə təsnifləndirilməsinə əsas verir.

Artıq Azərbaycan ədəbiyyatı tarixinin 10 cildindən 7 cildinin yeni konsepsiya əsasında yazılıb başa çatdırılması, Azərbaycan tarixinin 15 cilddə yenidən yazılması üçün elmi konsepsiyanın və plan-prospektin müəyyən edilməsi, çoxcildlik milli fəlsəfi təlimlər kitabə seriyasının davam etdirilməsi yeni tarixi mərhələnin elmdəki əks-sədasının əməli təzahürüdür. Nəsimi adına Dilçilik İnstitutunda repressiya qurbanı olmuş özbək əsilli Azərbaycan alimi Xalid Səid Xocayevin 1935-1937-ci illərdə ərəbcədən dilimizə tərcümə edilmiş "Divani-lüğat-it-türk" kitabının 86 ildən sonra üzə çıxarılması və 3 cilddə müqəddimə, giriş məqaləsi və şərhlərlə birlikdə nəşr edilməsi yeni tarixi mərhələnin mühüm elmi naliyyətlərindən biri kimi qiymətləndirilməyə layiqdir. "Qarabağın və Şərqi Zəngəzurun Dialektoloji Atlası"nın hazırlanıb nəşr edilməsi günün elminin əhəmiyyətli nailiyyətlərindən biridir. Humanitar və İctimai Elmlər Bölmələrinin əhatə etdiyi elmi-tədqiqat institutlarında aparılan tədqiqatlar və bu mövzuda nəşr edilən kitabların əsasında Akademiyanın yeni Qarabağnamələr silsiləsi yaradılmışdır. Arxeologiya və Antropologiya İnstitutunun Qarabağın işğaldan azad edilmiş ərazilərində həyata keçirdiyi qazıntılar həm bu diyarın qədim tarixinin və həm də I Qarabağ müharibəsi zamanı Ermənistan tərəfinin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərin üzə çıxarılmasını təmin etmişdir. Bu il işğaldan azad olunmuş ərazilərdə arxeoloji tədqiqatların və qazıntıların əhatə dairəsi daha da genişləndirilərək bütün Qarabağı və Şərqi Zəngəzuru əhatə edəcəkdir.

Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin elan etdiyi "Heydər Əliyev İli"ndə xalqımızın Ümummilli lideri Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı xidmətlərinin, böyük ideallarının tədqiq edilib öyrənilməsi sahəsində böyük uğurlara imza atılmışdır. Artıq Akademiyanın alimləri tərəfindən 2 cildlik "Heydər Əliyev ensiklopediyası"nın hazırlanması üçün ilkin sözlük bazası üzərində iş başa çatdırılmışdır. "Heydər Əliyev İli"ndə Azərbaycan elmində Ulu Öndərin həyatı və fəaliyyətinin tanıdılmasından və təbliğ edilməsindən fundamental tədqiqatlar əsasında araşdırılıb ümumiləşdirilməsinə keçidi əks etdirən bir kitabxanalıq qədər monoqrafik tədqiqatlar hazırlanıb nəşr olunmuşdur. Akademiyanın Ümumi yığıncağının Xüsusi iclasında, təşkil olunmuş beynəlxalq və respublika miqyaslı konfranslarda dinlənilmiş məruzələr, aparılan müzakirələr XX əsrin böyük dahi rəhbəri Heydər Əliyevin şəxsiyyəti, xidmətləri və ideallarının xalqımıza və dünyaya çatdırılmasına uğurla xidmət edir. Eynilə "Nizami Gəncəvi İli"ndə də Milli Elmlər Akademiyası Azərbaycan Nizamişünaslığının azərbaycançılıq meyarları ilə yeni elmi əsaslarının yaradılmasına əhəmiyyətli elmi töhfələr vermişdir. Azərbaycanda və xarici ölkələrdə ana dilimizdə və beynəlxalq miqyasda nəşr edilmiş monoqrafik əsərlər və nüfuzlu jurnallarda çap olunmuş məqalələr böyük Azərbaycan şairi Nizami Gəncəvi dühasının sənət qüdrətinə, ölməz şairin milli kimliyinə, nəsil şəcərəsinə, onun dünya şöhrətinə gur işıq salan yeni araşdırmaların ana xətlərini müəyyən edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin irəli sürdüyü Qərbi Azərbaycana Qayıdış ideyasının elmi əsaslarını formalaşdırmaq üçün də Akademiyada bir sıra əhəmiyyətli tədbirlər keçirilmişdir. Qərbi Azərbaycan Tədqiqatları Əlaqələndirmə Şurasının iclaslarında bu məsələ ilə əlaqədar əməli və konseptual məsələlər müzakirə edilərək, müvafiq qərarlar qəbul edilmişdir. Artıq "Qərbi Azərbaycan ensiklopediyası"nın sözlüyü üzərində iş başa çatdırılmış, Qərbi Azərbaycana həsr edilmiş elmi əsərlərin biblioqrafiyası hazırlanaraq kitab halında nəşr edilmişdir. Abbasqulu ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunda yaradılmış Qərbi Azərbaycan Tarixi, Folklor İnstitutundakı Qərbi Azərbaycan Folkloru, Dilçilik İnstitutundakı Toponimika səbələrində arxiv sənədləri və dövri mətbuat materialları əsasında fundamental tədqiqatların yaradılması sahəsində işlər uğurla davam etdirilir. Azərbaycan Milli Elmlər Akademiyasında Qərbi Azərbaycana dair yaradılan şöbələr və aparılan tədqiqatlar Ermənistan Elmlər Akademiyasında ciddi narahatlıq doğurmuş və buna görə qonşu ölkənin akademik təşkilatının rəhbəri ölkəsinin Təhlükəsizlik Şurasına müraciət edərək, özlərində də bizə qarşı tədqiqat və təbliğat aparmaq üçün əlavə köməklik göstərilməsini xahiş etmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının Tarix və Etnologiya İnstitutu ilə Atatürk Kültür, Dil və Tarix Qurumunun Türk Tarix Qurumu ilə birlikdə 29 noyabr 2023-cü ildə "Rəvandan - İrəvana və Qərbi Azərbaycana" mövzusunda beynəlxalq elmi konfrans keçirməklə

# yeniləşmə prosesləri

Qərbi Azərbaycan tədqiqatlarının miqyasını daha da genişləndirmişdir.

Akademiyada aparılan islahatlar sırasında Elektron hərəkat xüsusi yer tutur. Akademik fəaliyyətin elmmetrik qiymətləndirilməsi, Akademiya alimlərinin əsərlərinə elmi istinadların müəyyən edilməsi üçün beynəlxalq elmi bazalarda profillər yaradılması, elmi jurnalların elektron bazasının qurulması, elmi-tədqiqat institutlarında Elektron xidmətlər şöbəsinin təşkili Akademiya elektron hərəkatının yeni elmi addımlarıdır. MDB Elmlər Akademiyaları məkanında ilk dəfə olaraq Azərbaycan Milli Elmlər Akademiyasında Virtual Elektron Resurslar Sisteminin yaradılması mühüm elmi hadisədir. Türk dövlətləri içərisində Türkiyə Cümhuriyyətindən sonra ilk dəfə olaraq AMEA-da elmi jurnalların Dərgi Park Şəbəkəsinin təşkili də əhəmiyyətli elmi yenilikdir. Nəhayət, Azərbaycan Milli Elmlər Akademiyasının Türkiyə Cümhuriyyətinin dünyada böyük nüfuz qazanmış TÜBİTAK akademik təşkilatı ilə 28 fevral 2024-cü il tarixdə imzaladığı qarşılıqlı əməkdaşlıq haqqında müqavilə qardaş ölkənin elmi qurumu ilə birlikdə ölkəmizin TÜBİTAK-ının yaradılmasına hədəflənmişdir. Hazırda Elektron Akademiyaçılar sadə elmmetrik hesablamalar aparmaq bacarıqlarına malik robot texnologiyaları modeli yaratmaq üzərində hazırlıq işləri aparırlar. Eyni zamanda, 2024-cü ildə AMEA-da "Süni intellekt və rəqəmsallaşdırma: imkanlar və risklər" mövzusunda elmi konfransın keçirilməsi nəzərdə tutulur ki, bu da öz növbəsində elektron hərəkatın nəzəri dərkinə və praktik əhəmiyyətinə diqqətin daha da artırılmasına səbəb olmuşdur.

Günün elmi haqqında danışarkən Milli Elmlər Akademiyasının dünya elminə inteqrasiyası sahəsində atdığı addımları da ayrıca qeyd etməyə ehtiyac vardır. Belə ki, Akademiyanın tarixində ilk dəfə olaraq, 2023-2024-cü illərdə Milli Elmlər Akademiyası 3 beynəlxalq elmi təşkilatın üzvlüyünə qəbul edilmişdir. Hazırda AMEA Beynəlxalq Elmi Şura, Asiya Elmlər Akademiyaları və Elmi Cəmiyyətləri Assisiasiyası və Avrasiya Universitetlər Birliyində tam səsvermə hüququna malik olan akademik qurum statusu qazanmışdır. Son illərdə Türkiyə, Pakistan, Bolqarıstan, Özbəkistan, Qazaxıstan, Monteneqro Elmlər Akademiyaları ilə bağlnmış müqavilələr, əldə edilmiş razılaşmalar Milli Elmlər Akademiyasının üfüqlərini daha da genişləndirmişdir. Milli Elmlər Akademiyası əməkdaşlarının Çin Xalq Respublikasının Honkonq Elmlər Akademiyasının, Qazaxıstan və Gürcüstan Elmlər akademiyalarının Fəxri üzvü seçilmələri, Nobel mükafatı laureatı Əziz Sancarın AMEA-nın fəxri üzvlüyünə qəbul edilməsi, alimlərimizin nüfuzlu beynəlxalq elmi jurnalların redaksiya heyətində təmsil olunmaları Akademiyanın dünya elmi meridianlarındakı yeni səhifələridir. Eyni zamanda, AMEA-da 17 noyabr 2023-cü il tarixdə "Nobel mükafatına aparan yolun dərsləri: mif, reallıqlar, uğurlar və çağırışlar" mövzusunda keçirilmiş beynəlxalq elmi konfransda Azərbaycan alimlərinin sağlam rəqabət əsasında beynəlxalq elmi səviyyəyə çıxmaq imkanlarına iddialı olmalarını təşviq etməyə hesablanmışdır. Bu günlərdə Nobel Sülh Mükafatı laureatı banqladeşli Məhəmməd Yunusun Milli Elmlər Akademiyasında olması və aparılan müzakirələrdə beynəlxalq elmi əməkdaşlığın üfüqlərinin genişləndirilməsinə doğru yeni addımların atılması zərurətinin diqqətə çatdırılması bu sahədə yeni hədəflərin müəyyən edilməsinə meydan açır. İlk dəfə olaraq Türkiyə Cümhuriyyəti Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun Türk Dil Qurumu ilə birlikdə 2023-cü ilin 26 sentyabrında Azərbaycan Milli Elmlər Akademiyasında Türk Dili Bayramının qeyd edilməsi Humanitar Elmlər Bölməsinin institutları ilə qardaş ölkənin eyni profilli qurumlarının əlaqələrinin daha da genişləndirilməsinə səbəb olmuşdur. Bunun ardınca Türk Dil Qurumunun nəşr etdiyi 420 kitabı Nəsimi adına Dilçilik İnstitutuna hədiyyə etməsi səmərəli elmi əməkdaşlığın nəticəsidir. Bu ilin mart ayında AMEA Nəsimi adına Dilçilik İnstitutunda təşkil olunmuş Novruz bayramının Milli Elmlər Akademiyası ilə Türkiyə Elmlər Akademiyasının, Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumu və Türk Dil Qurumu ilə birlikdə qeyd etməsi də qarşılıqlı əməkdaşlığımızın yadda qalan hadisəsidir. Qardaş Türkiyə Cümhuriyyətinin elmi qurumları ilə qarşılıqlı əməkdaşlığımızın yüksələn xətlə inkişaf etməsi Azərbaycan Milli Elmlər Akademiyasının 2023-cü ildə Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun və Türk Dil Qurumunun "Türk dilinə xidmət" beynəlxalq mükafatı ilə təltif olunmasında öz əksini tapmışdır.

Struktur islahatları sahəsində həyata keçirilmiş islahatlar Azərbaycan Milli Elmlər Akademiyasındakı yeniləşmə proseslərinin mühüm hadisəsidir. Abbasqulu ağa Bakıxanov adına Tarix İnstitutunun bazasında Tarix və Etnologiya İnstitutunun, Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun əsasında Arxeologiya və Antropologiya İnstitutunun təşkili bu istiqamətlərdə tədqiqatların və tədbirlərin də miqyasının dərinləşdirilməsinə və genişləndirilməsinə xidmət edir. Eyni zamanda, AMEA-nın müxtəlif elmi-tədqiqat institutlarının tərkibində zamanın müasir tələblərinə uyğun olaraq"Qarabağ müharibəsinin tarixi və Böyük Qayıdış hərəkatı", "Türk xalqlarının tarixi və etnologiyası", "Xəzərin arxeologiyası", "Erkən realizm və yeni dövr Azərbaycan ədəbiyyatı", "İdrak nəzəriyyəsi və məntiqi", "Türk xalqlarının əlyazmaları", "Musiqi folkloru" şöbələrinin, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Mehmet Akif Ərsoy türk ədəbiyyatı Mərkəzinin fəaliyyətə başlaması Azərbaycan elminin yeniləşmə imkanlarının daha da genişləndirilməsinə şərait yaradır.

Azərbaycan Milli Elmlər Akademiyası Elm Gününə hesabat verərkən qarşıda duran məsul vəzifələri də diqqətlə və məsuliyyət hissi ilə nəzərdən keçirərək irəliyə doğru addımlayır. Azərbaycançılıq istiqamətində tədqiqatların mükəmməl elmi sisteminin yaradılması, türk dünyası ilə elmi əlaqələrin daha da genişləndirilməsi, humanitar və ictimai elmlər sahəsində süni intellektin tətbiq edilməsi, yeni elmi nəslin hazırlanmasına diqqətin artırılması, daha optimal idarəetmə sistemlərinin qurulması, elektron sənəd dövriyyəsinin müasir səviyyəyə qaldırılması, süni intellektin humanitar və ictimai elm sahələrinə tətbiq olunması və ən başlıcası isə müstəqil dövlətimizin daha da inkişaf etdirilməsində Azərbaycan elminin rolunun artırılması Akademiyanın gələcəyə doğru hədəflərində mühüm yer tutur. Artıq Azərbaycan Milli Elmlər Akademiyasının embleminin dəyişdirilməsi və yeni loqotipinin yaradılması üçün keçirilmiş müsabiqənin başa çatmaqda olması da yeniləşmə proseslərinin detallarından birinin də gündəmə daxil olmasından xəbər verir. Məlumat üçün qeyd edək ki, AMEA-nın yeni loqotipinin yaradılması üçün təşkil olunmuş müsabiqəyə 23 Akademiya əməkdaşının çəkdiyi 57 layihə təqdim olunmuş, 27 mart 2024-cü il tarixdə keçirilən Elm Günü tədbirləri çərçivəsində həmin eskiz layihələrinə ictimai baxışı təmin etmək üçün ilk sərgi təşkil olunmuşdur. Tərkibində görkəmli rəssamların da olduğu müsabiqə komissiyasının qiymətləndirilməsindən sonra həmin eskiz layihələri içərisindən AMEA-nın loqosu üçün seçilmiş iş qəbul ediləcəkdir.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 14 fevral 2024-cü il tarixdəki Andiçmə mərasimində irəli sürdüyü çağırışlar Milli Elmlər Akademiyası kollektivinin, alimlərimizin qarşısında daha mühüm vəzifələr qoyur. Azərbaycan alimləri müstəqil dövlətimizin inkişafına xidmət etməyi müqəddəs borc kimi qəbul edərək, daha böyük elmi hədəflərə doğru inamla addımlamağı şərəf işi hesab edirlər. Azərbaycan Milli Elmlər Akademiyasının elmi heyəti bu akademik təşkilatın təsis edilməsinin 80-ci ilinin başlanğıcında Elm Gününü bu əhval-ruhiyyələrlə qeyd edirlər. Alimlərin peşə bayramı olan Elm Günü mahiyyəti etibarilə Günün elminin vəzifələrinə, öhdəliklərinə və çağırışlarına işıq salır.**

**İsa HƏBİBBƏYLİ**
**AMEA-nın prezidenti, akademik**

## Türk Dil Qurumunun rəhbəri Osman Mert Dilçilik İnstitutunun Fəxri professoru seçilib



**AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunda Türk Dil Qurumunun təşkilatçılığı ilə kitab sərgisi keçirilib.**

Sərgidə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Türkiyə Elmlər Akademiyasının prezidenti professor Müzəffər Şəkər, Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun rəhbəri professor Dərya Örs, Türk Dil Qurumunun rəhbəri professor Osman Mert, Türk Tarix Qurumunun rəhbəri professor Yüksel Özgen, Dilçilik İnstitutunun direktoru professor Nadir Məmmədli və başqaları iştirak ediblər.

Sərgidə Türk Dil Qurumu tərəfindən Dilçilik İnstitutuna hədiyyə olunmuş, dilçiliyin müxtəlif sahələrini əks etdirən 200-ə yaxın kitab nümayiş olunub.

Daha sonra institutda türkiyəli qonaqların iştirakı ilə tədbir keçirilib.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli tədbirdə çıxış edərək qonaqları salamlayıb. O, Azərbaycan-Türkiyə əlaqələrinin möhkəmlənməsinin elm sahəsində əməkdaşlığa da geniş meydan açdığını söyləyib.

Azərbaycan-Türkiyə qardaşlığının dünyaya nümunə olduğunu deyən akademik İsa Həbibbəyli vurğulayıb ki, Azərbaycanın ərazi bütövlüyünün, dövlət suverenliyinin təmin olunması ilə başa çatan 44 günlük Vətən müharibəsi ölkələrimiz arasındakı münasibətlərdə yeni bir tarixi salnaməyə çevrildi, qardaş Türkiyə haqq savaşımızın hər anında Azərbaycanın yanında oldu.

AMEA rəhbəri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimindəki çıxışı zamanı səsləndirdiyi "Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır", - sözlərini xatırladıb. O, Türk Tarix Qurumunun işğaldan azad edilmiş ərazilərə səfər edən Türkiyənin elmi qurumları arasında ilk müəssisə olduğunu bildirib.

Akademik İsa Həbibbəyli, həmçinin Türk Dil Qurumunun rəhbəri professor Osman Mertin Azərbaycan-Türkiyə elmi əlaqələrinin inkişafındakı xidmətlərinə görə Dilçilik İnstitutunun Fəxri professoru seçildiyini diqqətə çatdırıb, bu münasibətlə türkiyəli alimi təbrik edib.

Daha sonra çıxış edən Nəsimi adına Dilçilik İnstitutunun direktoru professor Nadir Məmmədli Osman Mertin müasir türkologiyanın əsas simalarından biri olduğunu vurğulayıb. Qeyd edib ki, o, Azərbaycan dilinə, dilçilik elminə sevgisi olan ziyalılardandır. Son illərdə Osman Mertlə Dilçilik İnstitutu arasında dostluq münasibətinin formalaşdığını deyən professor Nadir Məmmədli bildirib ki, bu, Türkiyənin dilçilik mühiti ilə əlaqə deməkdir.

Professor Nadir Məmmədli Fəxri professor diplomunu qonağa təqdim edib.

Osman Mert ona göstərilən diqqətə görə AMEA prezidentinə və Dilçilik İnstitutunun rəhbərliyinə minnətdarlığını bildirib. O, bundan sonra da Türkiyə ilə Azərbaycan arasında elmi əlaqələrin gücləndirilməsinə çalışacağını deyib.

Sonda qonaqlar AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda yerləşən Mehmet Akif Ərsoy adına Türkiyə Ədəbiyyatı Mərkəzini ziyarət ediblər.

## Akademiyanın Nadir ağaclar parkında növbəti ağacəkmə aksiyası



**Ölkə başçısının 25 dekabr 2023-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Bundan irəli gələrək 22 yanvar 2024-cü il tarixində AMEA-nın Tədbirlər planı qəbul olunub.**

Sözügedən Tədbirlər planı çərçivəsində AMEA-nın Akademiya şəhərciyində salınmış Nadir ağaclar parkında növbəti ağacəkmə aksiyası keçirilib.

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Rəyasət Heyətinin üzvləri, Azad Həmkarlar İttifaqı və Gənc Alim və Mütəxəssislər Şurasının əməkdaşları iştirak ediblər.

Akademik İsa Həbibbəyli çıxış edərək əməkdaşları Novruz bayramı münasibətilə təbrik edib, AMEA-da "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində geniş tədbirlərin il ərzində keçiriləcəyini söyləyib.

Daha sonra Nadir ağaclar parkında ölkəmizin iqlim şəraitinə uyğun, dözümlü ağac və kol bitkiləri əkilib və aqrotexniki qulluq göstərilib.

Qeyd edək ki, "Heydər Əliyev İli" çərçivəsində salınmış Nadir ağaclar parkının salınmasında məqsəd ölkəmizdə ekologiyanın qorunması, təbiətə qayğı hissinin təbliği və ətraf mühitin sağlamlaşdırılmasıdır.



# Nobel mükafatçısı ilə görüş

**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli ölkəmizdə səfərdə olan banqladeşli Nobel Sülh mükafatı laureatı professor Məhəmməd Yunusla görüşüb.**

AMEA Rəyasət Heyətinin binasında keçirilən görüşdə akademik İsa Həbibbəyli Akademiyanın tarixi, burada fəaliyyət göstərən elmi bölmələrin işi, eləcə də AMEA-nın elmi istiqamətləri barədə qonağa ətraflı məlumat verib. Rəhbərlik etdiyi qurumun beynəlxalq elmi əlaqələrinin inkişaf etdirilməsi mərhələsində olduğunu diqqətə çatdıran AMEA rəhbəri Nobel mükafatı laureatı professor Məhəmməd Yunusun həm alim, həm də vətəndaş cəmiyyətinin lideri kimi Azərbaycanda yaxşı tanındığını xüsusi vurğulayıb. Həmçinin ötən ilin oktyabr ayında AMEA-da keçirilmiş “Nobel mükafatına aparan yolun dərsləri: mif, çətinliklər, uğurlar və çağırışlar” mövzusunda beynəlxalq elmi konfransda onlayn formada çıxış etmiş Məhəmməd Yunusa təşəkkürünü bildirib.

Nobel Sülh mükafatı laureatı professor Məhəmməd Yunus çıxış edərək AMEA-nın prezidenti akademik İsa Həbibbəyliyə “Kasıbların bankiri” əsəri haqqında yazdığı geniş həcmli elmi məqaləyə görə minnətdarlığını çatdırıb. O, apardığı elmi araşdırmalarından söz açaraq, xüsusən sosial biznes sahəsindəki fəaliyyəti və qazandığı uğurlar barədə ətraflı məlumat verib. Nobel mükafatına gedən yolun əsas problemlərini diqqətə çatdıran banqladeşli professor Azərbaycan Milli Elmlər Akademiyasının beynəlxalq elmi əlaqələrini yüksək qiymətləndirib, özünün də bu münasibətlərə töhfə verə biləcəyini qeyd edib.

Sonda professor Məhəmməd Yunus və görüş iştirakçıları AMEA Rəyasət Heyətinin binası ilə tanış olublar. Qonaqlara binanın zəngin memarlıq xüsusiyyətləri haqqında ətraflı məlumat verilib.

Görüşdə Xalq yazıçısı Çingiz Abdullayev, AMEA-nın birinci vitse-prezidenti v.i.e. akademik Arif Həşimov, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, “Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov, “Azərbaycan Milli Ensiklopediyası” Elmi Mərkəzinin direktor müavini Vaqif Bəhmənli, Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Rəhimoğlu, AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri Ağahüseyn Şükürov və Akademiyanın bir qrup əməkdaşı iştirak ediblər.

# BMT nümayəndələri AMEA-da

**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli ölkəmizdə səfərdə olan Birləşmiş Millətlər Təşkilatının (BMT) Sənaye İnkişafı Təşkilatının (UNİDO) nümayəndələri ilə görüşüb.**



Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatının baş direktor müavini və icraçı direktoru, baş direktorun Afrika üzrə xüsusi nümayəndəsi Fatou Haidara və təşkilatın Avropa və Mərkəzi Asiya regional bürosunun qlobal tərəfdaşlıq və xarici əlaqələr üzrə rəhbəri Solomiya Omelianın iştirak etdikləri görüşdə Azərbaycan Milli Elmlər Akademiyasının beynəlxalq əlaqələri barədə ətraflı söhbət aparılıb.

Sonra qonaqlar AMEA Rəyasət Heyətinin tarixi binası ilə tanış olublar. AMEA-nın birinci vitse-prezidenti v.i.e. akademik Arif Həşimov qonaqlara binanın tarixi, memarlıq xüsusiyyətləri barədə ətraflı məlumat verib.

BMT nümayəndələri, həmçinin AMEA-nın elmi istiqamətləri barədə məlumat alıblar.

BMT nümayəndələri Azərbaycana səfərdən, o cümlədən Akademiyada keçirilən görüşdən məmnun qaldıqlarını ifadə ediblər.

# AMEA prezidenti UNEC-də Sosial Biznes Mərkəzinin açılışında iştirak edib



**Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Yunus Sosial Biznes Mərkəzinin açılışı olub. Banqladeşli Nobel sülh mükafatı laureatı professor Məhəmməd Yunusun şərəfinə yaradılmış Mərkəzin açılış mərasimində AMEA-nın prezidenti akademik İsa Həbibbəyli də iştirak edib.**

Azərbaycanda səfərdə olan Nobel mükafatı laureatı professor Məhəmməd Yunusun da qatıldığı tədbirdə əvvəlcə Mərkəzin açılışını bildirən lent kəsilib, sonra quruma baxış keçirilib.

Açılış mərasimində AMEA-nın prezidenti akademik İsa Həbibbəyli çıxış edərək Azərbaycanda elm və təhsil üzrə beynəlxalq əlaqələrin bütün elmi istiqamətlər üzrə yüksələn xətlə inkişaf etdiyini bildirib. Azərbaycan Dövlət İqtisad Universitetinin də bu istiqamətdə əhəmiyyətli uğurlar qazandığını diqqətə çatdıran AMEA rəhbəri ali təhsil müəssisəsində Yunus Sosial Biznes Mərkəzinin yaradılmasının böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradov rəhbərlik etdiyi ali təhsil müəssisəsinin beynəlxalq əlaqələrindən ətraflı söz açıb, yeni yaradılmış Mərkəzin fəaliyyət istiqamətləri barədə məlumat verib.

Nobel mükafatı laureatı professor Məhəmməd Yunus ölkəmizdə olduğundan məmnunluğunu ifadə edib, Azərbaycanın elm və təhsilinə uğurlar arzulayıb. Ali təhsil müəssisəsində sosial biznes sahəsində bacarıqlı gənc tədqiqatçıların meydana çıxmaqda olduğunu diqqətə çatdıran banqladeşli professor yeni yaradılmış Yunus Sosial Biznes Mərkəzinin bu sahədə tələbə gənclərə əhəmiyyətli stimul verəcəyini vurğulayıb. Nobel mükafatı laureatı Biznes Mərkəzində ilk mühazirəsini də sosial biznes sahəsində qarşıda duran problemlərə həsr edib.

Sonda suallar cavablandırılıb.

Qeyd edək ki, açılış mərasimində Xalq yazıçısı Çingiz Abdullayev, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, “Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov, “Azərbaycan Milli Ensiklopediyası” Elmi Mərkəzinin direktor müavini Vaqif Bəhmənli, Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Rəhimoğlu, UNEC-in rəhbər heyəti və əməkdaşları iştirak ediblər.

# “Türk sivilizasiyasının dirçəlişi” mövzusunda beynəlxalq elmi konfrans



**AMEA-nın Əsas binasında Tarix və Etnologiya İnstitutunun təşkilatçılığı ilə “Türk sivilizasiyasının dirçəlişi” mövzusunda beynəlxalq elmi konfrans keçirilib.**

Əvvəlcə foyedə türk dünyasının qədim tarixini, mədəniyyətini və milli dəyərlərini əks etdirən sərgi nümayiş etdirilib.

Tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli iştirakçıları Novruz bayramı münasibətilə təbrik edib, onlara ən xoş arzularını çatdırıb.

Novruzun Azərbaycan xalqının milli birlik bayramı olduğunu söyləyən akademik İsa Həbibbəyli Mərkəzi Asiya ölkələrində və Türkiyədə də rəsmi şəkildə qeyd olunan bu bayramın Türk dünyasının inteqrasiyasında mühüm faktorlardan biri kimi səciyyələndirib. Bildirib ki, Novruz bayramı adət-ənənələrimizin qorunmasına, milli-mənəvi dəyərlərimizin unudulmamasına, nəsildən-nəslə ötürülməsinə, milli birliyə, dostluğa, həmrəyliyə xidmət edən ümumxalq bayramıdır.

“Artıq dördüncü ildir ki, Azərbaycan xalqı bütün Türk dünyasının qədim bayramı olan Novruzu qalib ölkə, qalib xalq olaraq qarşılayır”, - deyə bildirən AMEA rəhbəri bu il bu bayramın müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq işğaldan azad edilmiş Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə və bütün digər ərazilərimizdə qeyd edildiyini vurğulayıb.

Akademik İsa Həbibbəyli bildirib ki, ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan 44 günlük Vətən müharibəsi və 2023-cü il 19-20 sentyabr tarixli antiterror tədbirləri nəticəsində qazandığımız zəfərlər sayəsində indi ölkəmizin hər yerində Novruz bayramının təntənəsi, əhval-ruhiyyəsi yaşanmaqdadır. Bu il Novruz tonqalının işğaldan azad edilmiş torpaqlarımızda alovlandığını söyləyən alim qeyd edib ki, bu, Prezident İlham Əliyevin bütövlükdə Türk dünyası qarşısındakı ən böyük tarixi xidmətidir.

O, dövlət başçısının fevralın 14-də keçirilən andiçmə mərasimindəki çıxışı zamanı Türk dünyasının əhəmiyyətini xüsusi vurğuladığını deyib. Prezident İlham Əliyevin “Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu bizim üçün prioritetdir”, - fikirlərini xatırladıb.

AMEA rəhbəri Türk dünyasının qədim bayramlarından olan Novruzun, əslində, Türk soylarının qardaşlığından xəbər verdiyini söyləyib, tədbirin işinə uğurlar arzulayıb.

Daha sonra konfrans öz işini Dünya Türkologiya Mərkəzinin sədri, Tarix və Etnologiya İnstitutunun şöbə müdiri tarix elmləri doktoru Güllü Yoloğlunun moderatorluğu ilə davam etdirib.

Tədbirdə “İraq türkmanlarının dili və tarixi haqqında”, “Kərkük türkmanlarının ibtidai inancları”, “Azərbaycan ərazisində Türk damğalarının mövcudluğu və yerləşdiyi areal”, “Qədim türk yeməklərinin innovasiyası”, “Qaraçay türklərinin adətləri”, “Qaqauz türklərində “Qurd” simvolu” və digər mövzularda məruzələr dinlənilib.

Beynəlxalq konfrans iki gün davam edib.

# Azərbaycan memarlığında Naxçıvan abidələri

**AMEA-nın Əsas binasında Humanitar Elmlər Bölməsi və Memarlıq və İncəsənət İnstitutunun birgə təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr edilmiş "Azərbaycan memarlığında Naxçıvan abidələri" mövzusunda respublika elmi konfransı keçirilib.**



Tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın çoxəsrlik dövlətçilik tariximizdə mühüm yer tutduğunu bildirib. O, ölkə Prezidenti İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi haqqında" 2023-cü il 30 dekabr tarixli Sərəncamına əsasən bu il ərzində əlamətdar tədbirlərin keçirildiyini diqqətə çatdırıb.

Fevralın 9-da Naxçıvanda muxtar respublikanın 100 illiyinin təntənəli şəkildə qeyd olunduğunu xatırladan akademik İsa Həbibbəyli mühüm siyasi əhəmiyyətə malik Sərəncama əsasən AMEA-da da Naxçıvan Muxtar Respublikasının yubileyi ilə bağlı silsilə tədbirlərin təşkil olunduğunu söyləyib. O, həmçinin bu ilin iyul ayında Akademiyanın Naxçıvan Bölməsində AMEA Rəyasət Heyəti ilə birgə beynəlxalq konfransın keçiriləcəyini diqqətə çatdırıb. Bundan başqa, AMEA rəhbəri muxtar respublikanın 100 illiyi münasibətilə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən "Naxçıvan ədəbi mühiti: Ənənələr və müasir dövr" adlı kitabın hazırlandığını və nəşrin son hazırlıq mərhələsində olduğunu bildirib.

"Azərbaycan tarixinin bütün dövrlərində Naxçıvan həmişə doğma ana Vətənin ayrılmaz tərkib hissələrindən biri olmuşdur", - deyən akademik İsa Həbibbəyli vurğulayıb ki, Naxçıvanın Azərbaycanın tərkibində muxtariyyət statusu əldə etməsi və muxtar respublika kimi fəaliyyət göstərməsi bu diyarın çoxəsrlik tarixinin mühüm hadisəsidir. O, Naxçıvanın Atabəylər dövlətinin paytaxtı missiyasını şərəflə yerinə yetirdiyini, həmin dövrdə memar Əcəmi Naxçıvani tərəfindən bu diyarda milli memarlığımızın şah əsərlərindən olan Möminə xatun türbəsinin inşa edildiyini söyləyib. Alim dünya əhəmiyyətli abidə olan Möminə xatun türbəsini memarlıq sənətinin Xəmsəsi kimi xarakterizə edib.

Akademik İsa Həbibbəyli vurğulayıb ki, Naxçıvan Muxtar Respublikasının xilası və dirçəlişi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1990-cı il noyabrın 17-də Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə keçirilən Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin birinci sessiyasında ilk dəfə olaraq üçrəngli bayrağımız qaldırılmışdır. Milli bayraq məsələsi ilə əlaqədar 2 bəndlik qərar qəbul edilmiş, Naxçıvan MSSR adından "Sovet" və "Sosialist" sözləri çıxarılmışdı. SSRİ-nin mövcud olduğu bir dövrdə belə bir qərarın qəbul və icra edilməsi böyük cəsarət tələb edirdi ki, Ulu Öndər bunu nümayiş etdirmişdi.

AMEA prezidenti 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsində qəbul edilmiş Konstitusiyaya əsasən Naxçıvan Muxtar Respublikasına Azərbaycanın tərkibində muxtar dövlət statusu verildiyini söyləyib. O, Ulu Öndər Heydər Əliyevin Naxçıvana rəhbərliyi dövründə həyata keçirilən islahatlar, görülən əhəmiyyətli tədbirlər sayəsində Naxçıvanda sabitliyin, tərəqqinin və həmrəyliyin təmin olunduğunu, sosial-iqtisadi vəziyyətin yaxşılaşdırıldığını bildirib. Qeyd edib ki, Ulu Öndərin müdrik siyasəti sayəsində Azərbaycan regionunun ən etibarlı və güclü dövlətlərindən biri kimi özünü dünyaya təqdim etməyə müvəffəq oldu. Ölkədə siyasi sabitlik bərqərar oldu, Azərbaycan dövlətçiliyinin möhkəm təməli qoyuldu.

Akademik İsa Həbibbəyli hazırda Prezident İlham Əliyevin Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu layiqli şəkildə və yeni dövrün reallıqlarına uyğun uğurla davam etdirdiyini deyib. Əlavə edib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində əldə olunmuş Zəfər, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa olunması, Dövlət Bayrağının ölkəmizin bütün ərazisində dalğalandırılması Azərbaycan tarixinin təkrarsız hadisələridir.

AMEA prezidenti vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın bütün regionları kimi Naxçıvan Muxtar Respublikası da uğurla inkişaf edir, qarşıya qoyulan hədəflər reallaşdırılır.

Çıxışının sonunda akademik İsa Həbibbəyli bugünkü konfransın Naxçıvanın əsas sərvətlərindən olan memarlıq sahəsindəki nailiyyətlərə, şəxsiyyətlərə yeni elmi baxış gətirəcəyinə əminliyini bildirib.

Sonra çıxış edən Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru professor Gülçöhrə Məmmədova Naxçıvan memarlığının Azərbaycan memarlıq tarixində xüsusi yer tutduğunu, qədim dövrlərdən bu bölgədə çoxsaylı əhəmiyyətli abidələrin mövcud olduğunu söyləyib. Qeyd edib ki, Naxçıvan ərazisindəki yaşayış məskənləri, qalaşəhərləri və müdafiə istehkamları ən qədim dövrdən insanların burada yaşadığını təsdiq edir.

Professor Gülçöhrə Məmmədova Azərbaycanın ən qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvanın böyük inkişaf yolu keçdiyini, XII əsrdə burada memarlıq məktəbinin formalaşdığını söyləyib. Vurğulayıb ki, o dövrdə memar Əcəmi Naxçıvaninin yaratdığı məktəb nəinki Azərbaycan, bütün Şərq mədəniyyəti üçün əhəmiyyətli tarixi hadisə idi.

Azərbaycanda memarlıq abidələrinin bərpası və qorunması istiqamətində görülən işlərdən danışan rektor bu məsələnin müasir dövrdə xüsusi aktuallıq kəsb etdiyini bildirib.

Professor Gülçöhrə Məmmədova memarlıq abidələrinin bərpası istiqamətində rəhbərlik etdiyi müəssisə ilə AMEA institutlarının birgə fəaliyyətinin önəmini qeyd edib.

Konfransda Memarlıq və İncəsənət İnstitutunun direktoru AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə "Əcəmi Naxçıvani yaradıcılığının dünya memarlığına təsiri" mövzusunda məruzə ilə çıxış edib. O, Naxçıvanda və respublikamızın digər şəhərlərində ucaldılan, memarlıq baxımından əhəmiyyətli və maraq doğuran binalar, komplekslər, tarixi abidələr haqqında məlumat verib.

Tədbirdə, həmçinin "Naxçıvan abidələrinin ölkədaxili və xarici analoqları", "Naxçıvanın hidrotexniki tikililəri", "Naxçıvan abidələrinin Azərbaycanın Qərb bölgəsinin memarlıq irsi ilə əlaqələri", "Naxçıvan və Cənub-Şərqi Azərbaycanın müdafiə tikililərində memarlıq paralelləri" və digər mövzularda məruzələr dinlənilib, müzakirələr aparılıb.

# Milli leksikoqrafiyamızın yeni uğuru: Türk mənşəli arxaizmlər lüğəti

**Lüğətçiliyin tarixi çox qədimə gedib çıxsa da, bu lüğətlərin rüşeym halında mövcudluğu heç kəsdən gizli deyil. Mükəmməl lüğətçilik XI əsrdən götürülür. Bu, Qətran Təbrizinin "Lüğəti-fürs" əsəridir. Amma unutmaq lazım deyil ki, elm aləmində müxtəlif adlarla - "Lüğəti-Qətran", "Fərhəngi-Qətran", Təfasir fi lüğatül-fürs", "Təfasir" kimi tanınan bu lüğət türk dilinin deyil, fars dilinin ilk izahlı lüğətidir. Türk lüğətçiliyinin tarixi də XI əsrə təsadüf edir.**

Bu, M.Kaşğarinin "Divanü-lüğat-it türk" əsəri ilə başlayır və sevindirici haldır ki, inkişaf bu günə qədər də davam edir. İnteqrallıqla yanaşı diferensiallığa da imza atan bu lüğətlər bir tərəfdən əməli-tətbiqi, digər tərəfdən isə elmi-nəzəri mahiyyət kəsb edir. Ona görə də növlərindən asılı olmyaraq lüğətlərin hamısı elmi zəmin üzərində dayanır. Bu da faktdır ki, müasir lüğətlərin hazırlanması səsli dil əsasında reallığa qovuşursa, dilimizin tarixi keçmişini əks etdirən lüğətlər səssiz dil əsasında müəyyənlik qazanır. Odur ki, sonuncu lüğətlərin hazırlanması daha ağır və daha gərgin zəhmətin yekunu olaraq sonuclanır və nəhayətdə elm aləminə təqdim edilir. Elə bu səbəbdən dilimizin tarixi keçmişinə dönüş və oradan əliboş deyil, əlidolu qayıtmaq hər tədqiqatçının həddinə deyil. Bu yol məşəqqətli bir yaradıcılıq yoludur. Belə lüğətlər dilimizin tarixi keçmişini öyrənmək baxımından çox, həm də lap çox əhəmiyyət kəsb edir. Belə lüğətlərdən biri də yenicə ərsəyə gələn və lüğətçilik tarixinə imzalı qədəm basan "Türk mənşəli arxaizmlər lüğəti"dir. Azərbaycan yazılı abidələrinin bizə miras qalan materialları əsasında reallaşan lüğət Nəsimi adına Dilçilik İnstitutunun "Azərbaycan dilinin tarixi" şöbəsində filologiya üzrə fəlsəfə doktoru, dosent Xədicə xanım Heydərovanın rəhbərliyi altında hazırlanıb. Müasir dövr onilliklər əsasında öyrənildiyi halda, klassik dövr yüzilliklər əsasında tədqiqata cəlb olunur. Dilimizin tarixi keçmişindən qayıdan bu lüğət də 600 illik bir zaman kəsiyini - XIII-XVIII əsrləri əhatə edən ədəbi-bədii dil nümunələrini özündə cəmləşdirir. Əlifba nizamı ilə A, B, C, Ç, D, E. Ə hərfləri ilə başlayan sözlərlə əhatələnən bu lüğətin hələlik I cildi elm camiəsinin istifadəsinə verilib. Tərtibçilər A, B, C, Ç başlanğıclı leksik vahidləri toplayan və şərhlərlə birlikdə lüğətə daxil edən "Azərbaycan dilinin tarixi" şöbəsinin müdiri fil.ü.f.d., dos. Xədicə Heydərova və D, E, Ə ilə başlayan sözləri qeydə alan və müvafiq elmi izahlarla onları lüğətdə realizə edən şöbənin aparıcı elmi işçisi fil.ü.f.d., dos. Teyyub Quliyevdir.

Hamıya bəllidir ki, lüğətlər leksikoqrafik mahiyyət daşıdığından onlar əsasən leksik dil faktları ilə müəyyənlik qazanır. Amma bu da faktdır ki, qrammatikanın özünəməxsus bir avtonomiya təşkil etməsinə baxmayaraq, onun fonetika və leksika ilə əlaqə zənciri qırılmazdır. Bizə görə, leksikoqrafiyanın da bir tərəfdən semasiologiya, terminologiya, digər tərəfdən isə fonetika, qrammatika ilə bağlılığı şəksizdir. Yəni lüğət sadəcə quru bir "Sözlük" adını daşımır. Bu sözlərdə türkün dili, türkün yaşam coğrafiyası, türkün tarixi, türkün etnoqrafiyası, türkün hüquqi dövlətçilik ənənələri, türkün məişəti, türk mədəniyyətinin tarixi izləri yatır. Məsələ burasındadır ki, yaradıcı kollektiv dilimizin tarixi keçmişi üçün hər biri əvəzolunmaz dəyər daşıyan bu faktlara söykənərək onların tərkib komponentlərini də unutmur, onlara biganə qalmır. Belə ki, Xədicə xanım öz komandası ilə birlikdə leksikologiyanın qrammatika ilə əlaqə zəncirini də lüğətdə mühafizə edir. Nəticədə dilimizin tarixi keçmişini bu yöndən də oxucu kütləsinə tanıtdırmaqdan vaz keçmədiyi aşkarlanır. O, bizi dilin arxaik qatında yer alan leksik vahidlərlə yanaşı, həm də arxaikləşmiş morfoloji göstəricilərlə tanış edir. Təbii ki, onların tərkibində bildiklərimiz də kifayət qədərdir




(söhbət ixtisas sahiblərindən gedir), amma bilmədiklərimiz də az deyil. Belə olan halda, lüğətdə qeydə alınan arxaik sistemdə bir tamlaşma ilə qarşı-qarşıya dayanır və bunu leksikoqrafiya sahəsi üçün bir uğur kimi qəbul edirik. Sevindirici haldır ki, tədqim olunan dil faktları məhz ilkin mənbələrdən seçmə əməliyyatı ilə lüğətə daxil edilir. Və elə bu da dilimizin tarixinin bu yöndən daha dəqiq öyrənilməsinin təminatçısına çevrilir.

"Türk mənşəli arxaizmlər lüğəti" kollektiv yaradıcılıq məhsuludur. Bu o deməkdir ki, lüğətin çap edilmiş və yaxud çap ediləcək hər səhifəsində bir alim əməyi var. Əməkdar elm xadimi, fil.e.d., prof. Qəzənfər Kazımıv, fil.e.d., prof. Sevil Mehdiyeva, fil.ü.f.d., dos. Vahid Adilov, fil.ü.f.d., dos.Vahidə Cəfərzadə, fil.ü.f.d., dos. Teyyub Quliyev, fil.ü.f.d., dos. Aynur Paşayeva, fil.ü.f.d., dos.Türkan Əsgərova, fil.ü.f.d. Reyhan Mədətova, fil.ü.f.d. Aynur Mahmud, fil.ü.f.d. Elnurə Abbasova, böyük elmi işçi Rəxşanə Babazadə "Azərbaycan dilinin tarixi" şöbəsinin müxtəlif mənbələrdən seçmələr aparan çox hörmətli, zəhmətsevər, savadlı və bacarıqlı əməkdaşlarıdır. İstisnaları nəzərə almasaq, şöbənin əməkdaşları tərəfindən lüğətdə qeydə alınan bu leksik faktlar daha çox bədii dilin üzərində köklənir. Yəni seçilənlər əsasən klassik ədəbi-bədii dil nümunələrinin payına düşür. Bu da təsadüfi deyil. Çünki dilimizin bütün tarixi inkişaf mərhələlərində ən böyük ağırlıq həmişə bədii üslubun çiynində olub. Özü də aparıcılığa imza atan bədii üslubun məhz nəzm qolu olub. Onu da qeyd edək ki, seçilən və lüğətdə yerbəyer olan bu sözlər kontekstdən kənar adi leksemlər kimi görünsə də, əslində onlar vaxtilə mətnin poetik ağırlığını öz üzərinə götürən, həm klassik bədii dilin gücünü, həm də klassik bədii dilin tarixi gücünü nümayiş etdirən, ən mühümü xəlqilik axarına yol açan dil faktları olub. Bizi razı salan xüsusi cəhət lüğətdə verilən dil vahidlərinin kontekstlə təmas qurması və nəticə olaraq faktoloji mahiyyət daşımasıdır. Yəni komponent olaraq birinci sözlər, daha sonra onların kontekst daxilinidə təqdimi həyata keçirilir. Beləliklə, leksem əlifba sırası ilə öz yerinə oturdulur, təbii ki, qarşısında məna tutumu verilir və ən nəhayət, sübutedici fakt olaraq beyt təqdim edilir. Nəticədə sözün mətn daxilində daşıdığı semantikasının reallığına şübhə yeri qalmır. Lüğətdə bir başqa priyom yönləndirmə üsuludur. Təbii ki, burada əsas qayə oxucuları ehtiyac duyulan bəzi leksemlər haqqında daha ətraflı məlumatlarla bilgiləndirməkdən ibarətdir. Klassik ədəbiyyata yaxından bələdlik, elmi dəqiqlik, nəzəri hazırlıq və ondan yerli-yerində, özü də qaydasında istifadə birinci səhifədən sonuncu səhifəyə qədər bu lüğəti müşayiət edir. Fikrimizcə, bir tərəfdən sadalananların sintezi, digər tərəfdən elm camiəsində məhsuldar elmi fəaliyyəti ilə tanınan Xədicə Heydərovanın bir leksikoqraf kimi yetkinliyi və bu sahədə artıq şəxsi imzaya malikliyi lüğətin mükəmməlliyinin var olmasını şərtləndirib.

Kitab rəflərimizi hər yöndən bəzəyəcək bu lüğət hələlik Ə başlıqlı lüğəvi dil nümunələri ilə sonuclanıb. Lüğətin I cildi 467 səhifəlik həcm çoxluğu ilə oxucuların istifadəsinə verilib. Bu ona işarə edir ki, tədqiqatçılar dilimizin tarixi keçmişindən əliboş qayıtmayıb. Məhz əldə cəmləşən bu zəngin faktik dil materialı sayəsində Xədicə xanım Heydərova başda olmaqla onun rəhbərliyi altında fəaliyyət göstərən alim ordusundan elmi mühitin gözləntisi boşa çıxmayıb. Onu da vurğulayaq ki, lüğətdə yer alan türk mənşəli lüğəvi dil nümunələrinin o tarixi dövrlər üçün əslində arxaizm kimi qəbulu absurddur. Çünki klassik dövr üçün həmin dil faktlarının arxaizm kimi sübutu qeyri-mümkündür. İnanırıq ki, bu lüğəvi dil nümunələri məhz müasir Azərbaycan ədəbi dili ilə müqayisədə arxaizm kimi sənədləşdirilib. Təbii ki, məhz bu reallıq bizim üçün qəbulediləndir. Onu da deyək ki, ədalətlə edilən uğur təkcə bu şöbənin adı ilə deyil, həm də Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor Nadir Məmmədlinin adı ilə, onun işçilərinə arxa-dayaq durması, onlara qol-qanad verməsi, işçilərinin zəhmətini yüksək qiymətləndirməsi, ərsəyə gələn əsərlərin nəşrinə yardım etməsi ilə bağlıdır. Çünki onun rəhbərliyə gəlişindən sonra bu elm ocağı yeni bir abi-hava ilə tənzimlənib. Elə buna görə də əməkdaşların özünə güvənci artıb. Bizə görə, bu güvənc elmi məslək yolunda onları heç vaxt tərk etməyəcək və eyni mükəmməlliklə lüğətin II və III cildləri bizlərə ərmağan ediləcək. İnanırıq ki, filologiya üzrə fəlsəfə doktoru, dosent Xədicə xanım Heydərovanın rəhbərliyi altında ərsəyə gələn "Türk mənşəli arxaizmlər lüğəti"nin çap edilmiş və çap ediləcək növbəti cildləri milli leksikoqrafiya ənənələrini inkişaf etdirmək və təkmilləşdirmək yolunda elmə öz töhfəsini əsirgəməyəcəkdir.

**Qızılgül ABDULLAYEVA**
**BDU-nun Türkologiya kafedrasının dosenti**

# Respublika Seysmoloji Xidmət Mərkəzində "Açıq qapı"

**AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzində (RSXM) Elm Gününə həsr olunmuş "Açıq qapı" günü təşkil edilib.**




Tədbirdə AMEA-nın vitse prezidenti akademik İbrahim Quliyev, AMEA nəzdində RSXM-nin baş direktoru Qurban Yetirmişli, mərkəzin müvafiq şöbələrinin əməkdaşları, ali məktəb tələbələri və şagirdlər iştirak ediblər.

"Açıq qapı" günündə RSXM-nin baş direktoru Qurban Yetirmişli iştirakçılara Respublika Seysmoloji Xidmət Mərkəzində aparılan kompleks seysmoloji, geofiziki, geodinamik, geokimyəvi tədqiqatlar haqqında ətraflı məlumatlar verib. Baş direktor daha sonra RSXM-nin seysmik stansiyalarından seysmik dalğaların Monitorinq Mərkəzinə qəbulu, seysmik dalğa məlumatlarının emalı, zəlzələ ocaqlarının mexanizminin öyrənilməsi metodları, GPS tədqiqatları və alınmış nəticələr haqqında da danışıb.

Bundan başqa, mərkəzin müvafiq şöbələrinin rəhbərləri iştirakçıları mərkəzin müvafiq şöbələrində görülmüş işlərlə və əldə olunmuş nəticələr, Azərbaycanın seysmik vəziyyəti, zəlzələ ocaqlarının mexanizmlərinin öyrənilməsi, GPS stansiyalarının fəaliyyəti ilə bağlı məlumatlandırıblar.

Daha sonra qonaqlara çöl ekspedisiya tədqiqatlarında istifadə olunan geofiziki cihazlar vasitəsilə dalğaların qeydə alınması, 1902-ci ildən bu günə qədər Azərbaycan ərazisində aparılan tədqiqatlarda istifadə olunan seysmoloji və geofiziki cihazlar əyani şəkildə nümayiş etdirilib. Eyni zamanda, son yüz ildə Azərbaycan seysmologiyasının inkişaf mərhələləri və əldə olunmuş nəticələrə dair təqdimatlar olub.

# Yeni monoqrafiya nəşr olunub




Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun əməkdaşları - kimya elmləri doktoru, professor Eldar Məmmədbəyli və aparıcı elmi işçi Vəfa Babayevanın yazdıqları "Tərkibində norbornen saxlayan imidazolinlər" adlı kitab "Elm" nəşriyyatında çapdan çıxıb.

Monoqrafiya neft-kimya sintezi sahəsində çalışan geniş spektrli elmi mütəxəssislər, o cümlədən bakalavrlar, magistrlər, dissertantlar və doktorantlar üçün nəzərdə tutulub.

**ELAN-MÜSABİQƏ**

# "Məhəmmədəmin Rəsulzadə: dil, ədəbiyyat və tarix məsələləri" adlı respublika simpoziumu

**17 may 2024-cü il tarixində Bakı Avrasiya Universiteti və AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun birgə təşkilatçılığı ilə Məhəmmədəmin Rəsulzadənin anadan olmasının 140 illiyinə həsr edilmiş "Məhəmmədəmin Rəsulzadə: dil, ədəbiyyat və tarix məsələləri" adlı respublika simpoziumu keçiriləcək.**

Müraciət və qeydiyyat:

**- Xülasə və məqalə təqdim etmək üçün son tarix: 15 aprel 2024-cü il**

- Proqramın elanı: 5 may 2024-cü il

**Simpoziumda iştirak**

- Simpozium Bakı Avrasiya Universitetində keçiriləcəkdir.

**Tədqiqat sahələri / Simpoziumun əhatə dairəsi**

Simpoziumda aşağıdakı mövzular üzrə tədqiqatların nəticələrinin təqdim olunması nəzərdə tutulur:

**I bölmə. Məhəmmədəmin Rəsulzadə və ana dili məsələləri**

1. Məhəmmədəmin Rəsulzadə millətimizin və dilimizin mənşəyi haqqında
2. Məhəmmədəmin Rəsulzadə əsərlərinin dili
3. Məhəmmədəmin Rəsulzadə ana dilimizin qoruyucusu kimi
4. Məhəmmədəmin Rəsulzadənin əsərləri əcnəbi dillərdə

**II bölmə. Məhəmmədəmin Rəsulzadə və Azərbaycan ədəbiyyatı məsələləri**

1. Məhəmmədəmin Rəsulzadənin bədii yaradıcılığı
2. Məhəmmədəmin Rəsulzadə və klassik Azərbaycan ədəbiyyatı
3. Məhəmmədəmin Rəsulzadənin "Çağdaş Azərbaycan ədəbiyyatı" əsərinə yeni baxış
4. Məhəmmədəmin Rəsulzadənin redaktorluq fəaliyyəti, publisistikası, Məhəmmədəmin Rəsulzadə (surəti) bədii ədəbiyyatda

**III bölmə. Məhəmmədəmin Rəsulzadə və Azərbaycan tarixi məsələləri**

1. Məhəmmədəmin Rəsulzadənin həyatına baxış, onun dövlətçilik baxışları və fəaliyyəti
2. Məhəmmədəmin Rəsulzadənin Azərbaycan tarixi üzrə əsərləri
3. Məhəmmədəmin Rəsulzadə və Azərbaycanın qədim dövr tarixi
4. Məhəmmədəmin Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti" əsərinə yeni baxış

*Qeyd: Yuxarıda müəyyən edilmiş istiqamətlərə aid olmayan mövzular qəbul edilməyəcəkdir.*

Xülasə və məqalənin yazı qaydaları:

- Xülasə 150-200 söz, 12 şrift (Times New Roman), 1,5 aralıqla Azərbaycan və ingilis dillərində göndərilməlidir. Xülasənin sonunda 5-10 açar söz göstərilməlidir;

- Tam mətn 5-6 səhifə, 12 şrift (Times New Roman), 1,5 aralıqla xülasə də daxil olmaqla, Azərbaycan və ingilis dillərində göndərilməlidir.

**Müraciət forması**

- Word formatında yazılmış məqalə və xülasələr 15 aprel 2024-cü il tarixinədək MResulzade140.AMEA@baau.edu.az ünvanına göndərilməldir.

- Məqalə qəbul edildikdən sonra qəbul məktubu göndəriləcək.

Məruzə mətnləri aşağıdakı qaydada tərtib edilməlidir:

- MS Word redaktoru;
- A4 formatı;
- Mətnin əvvəlində müəllifin ORCİD nömrəsi, adı və soyadı, iş yeri (təhsil aldığı müəssisə), elmi dərəcəsi, elmi adı, elektron ünvanı göstərilməlidir;
- İstinadlar və ədəbiyyatlar APA stilində olmalıdır.

*Qeyd: Tərtibata və mövzuya uyğun olmayan, eləcə də konfransda iştirak etməyən müəlliflərin məruzə mətnlərinə konfrans materiallarında yer verilməyəcəkdir.*

**Ünvan: AZ1110, Azərbaycan Respublikası, Bakı şəhəri, Ak. Həsən Əliyev küçəsi, 135 A**
**Tel: (+994 12) 564 63 67**
**E-mail: MResulzade140.AMEA@baau.edu.az**

# "İraq-türkman folkloru və ədəbiyyatı" mövzusunda beynəlxalq elmi konfrans

**Tariximizin, ədəbiyyatımızın və mədəniyyətimizin mühüm bir parçasını təmsil edən İraq türkmanları ağır ictimai-siyasi hadisələr fonunda milli kimliyin qorunub saxlandığı zəngin dil və qədim xalq ədəbiyyatı, mədəniyyəti incilərini sağlam şəkildə yaşatmağa, yeni çalarlar qataraq inkişaf etdirməyə nail olmuşlar.**

İraq türkmanları tükənməz folklor qaynağına malik olmaqla yanaşı, həm də dahi İmadəddin Nəsimi və Məhəmməd Füzulinin qiymətli yaradıcılığı ilə başlayan və bu gün də xalqın siyasi-ictimai həyatını işıqlandırmaq istiqamətində inkişaf etdirilən zəngin yazılı ədəbiyyat nümunələri də yaradırlar. İraq türkmanlarının yaratdığı yazılı ədəbiyyat tarix boyu inkişaf etdirilərək zəngin bir iris meydana gətirmiş və dövrümüzədək yaşamaqdadır. Yad xalqlar və dillərlə əhatə olunmuş bir çevrədə anadilli poeziyanın da yaşadılması bu ədəbiyyatın həqiqətən möhkəm sütunlar üzərində bərqərar olmasından xəbər verir.

İraq türkmanlarının və bütövlükdə Türk dünyasının XX əsrdə yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biri olan Əta Tərzibaşı xalqın tarixi keçmişinin, milli-mənəvi zənginliyinin ən bariz göstəriciləri - dil, folklor, tarix, ədəbiyyat, mətbuat və s. kimi mühüm sahələrdə yorulmadan çalışmış, fundamental əsərlər yaratmışdır.

İraq türkmanlarının milli özünüdərk və özünütəsdiqində mühüm rol oynayan bu görkəmli elm fədaisi əsasən ədəbiyyat və folklora dair araşdırmaları ilə tanınmış, xalqın milli irsinin toplanması, nəşri və tədqiqi zərurətini yaradıcılığının əsas qayesinə çevirmişdir.

XX əsrin 50-ci illərinədək İraq-türkman dili, tarixi, ədəbiyyatı, folkloru, ümumiyyətlə mədəniyyət tarixi sistemli şəkildə araşdırılmamış, bu sahədə ciddi tədqiqatlar aparılmamışdır. Etnik yaddaşda qorunub saxlanan, milli ruhu və milli zövqü əks etdirən bu zəngin mədəniyyət xəzinəsinin yazıya alınıb araşdırılmasını İraq türkmanları qarşısında bir vətəndaşlıq və vətənpərvərlik vəzifəsi kimi dəyərləndirən görkəmli araşdırıcı Əta Tərzibaşı bütün mənalı ömrünü təmənnasız olaraq İraq türkmanlarının elmi-mənəvi yüksəlişinə, milli-mədəni tərəqqisinə həsr etmişdir.

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Folklor İnstitutu və Kərkük Kültür Dərnəyinin birgə təşkilatçılığı ilə bu fədakar araşdırıcının yubileyi şərəfinə "Görkəmli tədqiqatçı Əta Tərzibaşının anadan olmasının 100 illiyi münasibətilə "İraq-türkman folkloru və ədəbiyyatı" mövzusunda beynəlxalq elmi konfrans keçiriləcək. Sizi İraq-türkman dili, tarixi, folkloru, etnoqrafiyası, ədəbiyyatının, eləcə də Əta Tərzibaşının zəngin yaradıcılığının araşdırılmasını əhatə edəcək məruzələrlə konfransda iştiraka dəvət edirik.

Konfransın 4 mövzu istiqamətində təşkil edilməsi planlaşdırılır:

1. Əta Tərzibaşı -
a) həyatı
b) ədəbiyyatşünaslıq irsi
c) folklorşünaslıq fəaliyyəti
d) mətbuat sahəsindəki yaradıcılığı
2. İraq türkmanlarının dili
3. İraq-türkman folkloru
4. İraq-türkman ədəbiyyatı

Mühüm tarixlər:

• Konfransda iştirak etmək istəyənlər 150-200 sözdən ibarət məruzə xülasələrini 20 aprel 2024-cü il tarixinədək ataterzibasi100@mail.ru elektron poçt ünvanına göndərə bilərlər.

• Xülasələrin qəbul edilib-edilmədiyi haqqında müəlliflərə 25 aprel 2024-cü il tarixinədək elektron poçt ünvanı vasitəsilə məlumat veriləcək.

• Konfrans 22-23 may 2024-cü il tarixlərində üzüə və onlayn formatda keçiriləcək.

• Məruzələrin tam mətni 25 iyun 2024-cü il tarixinədək təqdim edilməlidir.

• Konfransda məruzə etməyən şəxslərin məqalələri konfrans materialları kitabına salınmayacaq.

# "Yaşıl enerji və yaşıl iqtisadiyyat problemləri" mövzusunda beynəlxalq seminar

**5 aprel 2024-cü il tarixində AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun təşkilatçılığı ilə "Yaşıl enerji və yaşıl iqtisadiyyat problemləri" mövzusunda beynəlxalq iştirakla elmi seminar keçiriləcək.**

Seminarın keçirilməsinin məqsədi müvafiq sahə mütəxəssislərini vahid platformada birləşdirməklə, son illərdə "Yaşıl enerji" tədqiqatlarında qazanılan, yeni, ekoloji təmiz energetik texnologiyaların yaradılması və tətbiqi sahəsində əldə edilən elmi-metodiki və texniki uğurların, yeni yanaşmaların nümayişi, bu sahədə təcrübə mübadiləsi və gələcək əməkdaşlıq perspektivlərinin müzakirəsindən ibarətdir.

Elmi tədbirdə müzakirə olunacaq əsas məsələlər aşağıdakılardır:

- Cəmiyyətin inkişafında yaşıl dünyanın kosmik rolu;
- Yaşıl enerji və ətraf mühit problemləri;
- Bioyanacaq və hidrogen iqtisadiyyatı;
- Bərpa olunan enerji texnologiyaları və onların cəmiyyətin sosial-iqtisadi inkişafına təsiri;
- Ekoloji problemlərin həllində innovativ yanaşmalar;
- Bərpa olunan enerji sahəsində texnoloji trendlər.

Bütün maraqlı tərəflər və mütəxəssislər dəvətlidirlər.

# AMEA Arxeologiya və Antropologiya İnstitutu

**AMEA Arxeologiya və Antropologiya İnstitutu aşağıdakı vəzifəyə qəbul elan edir:**

**Böyük elmi işçi - 1 yer**

Müsabiqəyə sənədlər elan verildiyi tarixdən bir ay müddətində təqdim olunmalıdır.

Müsabiqə şərtləri barədə ətraflı məlumat üçün institutun elmi katibinə müraciət edilə bilər.

**Ünvan: AZ-1143, Bakı şəhəri, H.Cavid prospekti, 115.**
**AMEA-nın əsas binası, 6-cı mərtəbə, 613-cü otaq.**
**Telefon: (012) 538-34-76**

# Azərbaycan Elm Fondu Gənc Alim və Tədqiqatçıların 8-ci qrant müsabiqəsini elan edir

Azərbaycan Elm Fondu gənc alim və tədqiqatçıların elmi fəaliyyətinin stimullaşdırılması və onlara elmi tədqiqatlar aparmaq üçün əlverişli imkanların yaradılması, gənc kadr potensialının gücləndirilməsi üçün proqramların işlənib hazırlanması, onların elmi və peşəkarlıq səviyyələrinin yüksəldilməsi, innovasiya fəaliyyətinin dəstəklənməsi, regional və beynəlxalq səviyyəli proqram və layihələrdə iştirak etməyə cəlb edilməsi məqsədi ilə 2024-cü ildə Gənc Alim və Tədqiqatçıların 8-ci qrant müsabiqəsini (AEF-GAT-8-2024-1(49)) elan edir.

Gənclər üçün yaşıl təhsil; ekoloji şüurun və həmrəyliyin təşviqi; gənclər və dairəvi iqtisadiyyat: tullantıların azaldılması və resurs həmrəyliyi üçün strategiyalar; yaşıl innovasiya mərkəzləri: ətraf mühit problemləri üçün gənclərin rəhbərlik etdiyi həllərin tərtib edilməsi və s. kimi prioritetlər müsabiqənin əsas prioritetləri kimi qeyd olunub.

Perspektivli gənc alimlər, eləcə də öz elmi sahəsində lider olan tədqiqatçılar bu qrant üçün müraciət edə bilərlər.

Müsabiqədə iştirak etmək üçün layihələr 14 mart - 19 aprel 2024-cü il tarixləri arasında qəbul olunacaq. Müsabiqənin nəticələrinin 2024-cü ilin sonunda açıqlanması planlaşdırılır.

Qeyd edək ki, layihələrin qəbulu üçün nəzərdə tutulmuş müddət ərzində qrant iddiaçılarına kömək və sualların cavablandırılması məqsədilə məsləhət seminarlarının keçirilməsi nəzərdə tutulub. Bu barədə əlavə məlumat Fondun internet səhifəsində dərc olunacaq.

https://www.aef.gov.az/az/news/view/589

**Redaksiya heyəti:**
İsa Həbibbəyli, Arif Həşimov, Dilqəm Tağıyev,
İbrahim Quliyev, Nərgiz Paşayeva, Rasim Əliquliyev,
Tofiq Nağıyev, İradə Hüseynova, Gövhər Baxşəliyeva, Cəmil Əliyev,
İsmayıl Hacıyev, Fuad Əliyev
**Baş redaktor:** Ağahüseyn Şükürov

**Ünvan:** AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi 30.
Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti
**e-mail:** elm.nauka.gazet@gmail.com
**Tiraj: 2000**

# НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

Сила в науке...
Низами Гянджеви

ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 11 (1408) ❖ Пятница, 29 марта 2024 года ❖ Газета выходит с 1984 года




# Миссия универсальна

## В НАНА торжественно отметили День науки

